Xalqın qəzeti!

# Xalq qəzeti

№ 18 (30422) 28 yanvar 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Azərbaycan – İran münasibətlərində ədalət sınağı

*Tehranda törədilmiş 27 yanvar terrorunun 1 ili tamam oldu*





**Dünən Azərbaycanın İrandakı səfirliyində törədilmiş terror aktının bir ili tamam oldu. Hadisənin Azərbaycan-İran münasibətlərində müstəqillik dövründən etibarən ən böyük miqyaslı soyuqlaşma üçün, bir növ, katalizator rolunu oynadığı məlumdur. Yazımızda mövcud istiqamətdəki təfərrüatlara, o cümlədən, Azərbaycanın Xarici İşlər Nazirliyinin terror aktının bir illiyi ilə bağlı dünən yaydığı bəyanata diqqət yetirəcəyik. Əlbəttə, digər əlaqəli məqamları da vurğulayacağıq. Hələlik isə xatırlatma edək.**

Deməli, 27 yanvar 2023-cü il tarixdə saat 8 radələrində İran vətəndaşı Yasin Hüseynzadə "Kalaşnikov" markalı avtomat silahla ölkəmizin paytaxt Tehrandakı ali diplomatik nümayəndəliyinə daxil olmuşdu. O, heç bir maneə görmədən, mühafizə postunu yarmış, səfirlik əməkdaşlarına atəş açmışdır. Nəticədə səfirliyimizin mühafizə xidmətinin rəhbəri baş leytenant Orxan Əsgərov həlak olmuşdur. Hücumun dəf edilməsi zamanı iki mühafizəçi xəsarət almışdı. Onlardan biri terrorçunu zərərsizləşdirməyə nail olan Vasif Tağıyevin çiyninə və çənəsinə güllə dəymişdi.

Y.Hüseynzadə İran hüquq-mühafizə orqanları tərəfindən saxlanılmış və istintaqa cəlb olunmuşdur.

*(ardı 3-cü səhifədə)*

## İrəvandan növbəti anti-Rusiya addımı

*Ermənistan ərazisində ABŞ-ın daha bir biolaboratoriyasının açılması təsadüfi deyil*

**Rusiya ilə strateji tərəfdaş olmasına, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı adlanan hərbi-siyasi blokda və regional iqtisadi inteqrasiyanı nəzərdə tutan Avrasiya İqtisadi İttifaqında Moskva ilə sıx əməkdaşlıq etməsinə baxmayaraq, Ermənistan ABŞ-la əlaqələri də durmadan inkişaf etdirir.**



Xüsusilə, 2023-cü il Ermənistanın ABŞ, NATO və bütövlükdə Qərblə hərbi-siyasi əlaqələrinin üst səviyyəyə qalxması ilə əlamətdar oldu. İlk dəfə məhz 2023-cü ildə, sentyabrın 11-dən 19-dək Ermənistan sülhməramlı briqadasının "Zar" təlim mərkəzində "Qartal tərəfdaşı – 2023" adlı erməni-amerikan birgə hərbi təlimlər keçirildi. Manevrlərdə 85 amerikalı və 175 erməni hərbi qulluqçusu iştirak etdi. Təlimin gedişini ABŞ Quru Qoşunlarının Avropa və Afrika üzrə Baş Qərargah rəisinin müavini, briqada generalı Patrik Ellis və 10-cu dağ diviziyasının komandiri, general-mayor Qreqori Anderson müşahidə etdilər.

Bugünlərdə Ermənistanın ABŞ-la hərbi sahədə əməkdaşlığına dair daha bir hadisə baş verib. Hayastanın "Past" qəzetinin yazdığına görə, ölkədə Amerikaya məxsus daha bir bioloji laboratoriya açılacaq. Qeyd olunur ki, Ermənistandakı Amerika bioloji laboratoriyaları məsələsi həmişə peşəkar dairələrin diqqət mərkəzində olub. Xüsusilə, müxtəlif ekspertlər onların potensial təhlükələri ilə bağlı narahatlıqlarını ifadə edirlər. Qəzet yazır: "Müvafiq strukturların nümayəndələri söhbətin keçmiş sanitar-epidemioloji stansiyaların laboratoriyalarından getdiyini və onların Vaşinqtonun maliyyəsi ilə modernləşdirildiyini qeyd edirlər. Nikol Paşinyan isə əmin edir ki, bioloji laboratoriyaların modernləşdirilməsi üçün ABŞ-ın maliyyə dəstəyinə baxmayaraq, onlar Ermənistan Respublikasının mülkiyyətidir. Ancaq bu açıqlamalar narahatlığı azaltmır. İndi də müdafiə naziri Suren Papikyanın ötən həftə Pentaqonla Ermənistanda 13-cü laboratoriyanın açılması ilə bağlı müqavilə imzaladığı barədə məlumatlar yayılıb".

*(ardı 4-cü səhifədə)*

## AŞPA söndürülmüş separatizm ocağını niyə körükləyir?

**AŞPA-dakı Azərbaycan nümayəndə heyəti bu qurumla əməkdaşlığını və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib, nümayəndə heyəti bununla bağlı bəyanat verib. Həmçinin bəyanatda qeyd olunur ki, Avropa Şurası Parlament Assembleyasındakı dözülməz mühit məhsuldar müzakirələr üçün caiz platforma deyil.**




Qənimətçilər üçün qurumda Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin təsdiqi ətrafında təşkil olunan müzakirələrlə bağlı informasiyalar sıradan bir xəbər kimi görünə bilsə də, Azərbaycanda və ondan kənarda yaşamasına baxmayayraq, bu ölkənin problemlərinə biganə olmayan hər kəs üçün təəccüblü qarşılana bilərdi.

Əslində, AŞPA-nın Azərbaycan dövlətinə qarşı bu davranışı həmin qurumun ölkəmizə münasibəti çərçivəsində atdığı addımların məntiqi davamı olduğundan bu, həmin qurumda gedən prosesləri izləyənlər üçün gözlənilməz olmadı. Şəxsən bugünkü Ermənistan Respublikasından, coğrafi ərazi olaraq Qərbi Azərbaycandan Azərbaycan Respublikasına qarşı rəsmi İrəvanın torpaq iddiaları ilə başlayan müharibə fonunda 250 mindən çox soydaşımızın qaçqına çevrilməsi faktının bir dəfə olsa belə, bu qurumda qınanması faktına rast gəlinmədi. Tarixən aborigen əhalisinin azərbaycanlılar olduğu, o qədim yaşayış yerlərinin artıq yaddaşlarda daşlaşmasından yüzillər keçməsinə baxmayaraq, hazırki rəsmi İrəvanın amansızcasına toponim etnosidi həyata keçirməsinə bircə dəfə reaksiya verməməsi adıçəkilən qurumun hansı dəyərləri önə çəkdiyini göstərir.

Bildiyimiz kimi, toponimlər (xüsusən hidronimlər) arxaizmlər və dialektizmlər davamlı olaraq qorunub saxlanılır. Onlar tez-tez keçmişdə müəyyən bir ərazidə yaşamış xalqların substrat dillərinə qayıdır. Bu da onlardan yaşayış məntəqəsinin sərhədlərini müəyyən etmək üçün istifadə etməyə imkan verir.

Bu faktı niyə xatırladıq?

Azərbaycanın beynəlxalq qanunlarla öz yuridik haqlarını təmin etmək, 1990-cı illərin əvvəllərindən rəsmi İrəvanın birbaşa Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaranan separatizm ocaqlarını söndürmək üçün 2020-ci ildə başladığı antiterror əməliyyatlarının yekun mərhələsində ilk "sürpriz"lər məhz o qurumdan gəldi. AŞPA 23 oktyabr 2023-cü il tarixində "Dağlıq Qarabağda humanitar vəziyyət" adlı qətnamə qəbul etdi. Həmin qətnamənin 23-cü bəndində təşkilat açıq-aşkar Azərbaycanı təhdid etdi, 19 sentyabrda baş tutan lokal xarakterli antiterror əməliyyatlarını hərbi əməliyyatlar kimi qiymətləndirirdi. AŞPA "Dağlıq Qarabağın erməni əhalisinin humanitar vəziyyəti"ndən ciddi narahatçılıq ifadə edirdi. Kin və qəzəbdən ağlını itirmək dərəcəsinə çatan AŞPA rəhbərliyinin iradəsi açıq-aşkar ortada idi və həmin qətnamədə qurum gizlətmədən ölkəmizlə bağlı atacaqları addımları dilə gətirirdi – Azərbaycan nümayəndə heyətinin etimadnaməsini 2024-cü ilin ilk iclasında tanımamaqla hədələdi.

Bu, azərbaycanlıların, demək olar ki, 30 illik işğalın hökm sürdüyü şəraitdə epizodik olaraq görmədikləri "ikili standartlar" siyasətinin növbəti təzahürü idi.

*(ardı 4-cü səhifədə)*

## "100-dən yuxarı"ların ən yaşlısı



Səhifə ⇨ 9

## Azərbaycanın "Əl-Cəzirə"dəki səsi



Səhifə ⇨ 11

## Torpaq adamı dövlət dəstəyindən güc alır



Səhifə ⇨ 10

## Orta Dəhlizin nəbzi Azərbaycanda döyünür

**Türkiyə Respublikasının Ankara şəhərində "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin ümumi yığıncağının növbəti iclası keçirilib.**



"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətindən verilən məlumata görə, iclas zamanı ötən ilin yük daşımalarının təhlili nəzərdən keçirilib. Nəticələrə əsasən, 2024-cü il üçün Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) üzrə tarif dərəcələri və yüklərin daşınma planı təsdiq edilib. İclasda, həmçinin Orta Dəhlizin inkişaf etdirilməsi ilə bağlı digər məsələlər müzakirə olunub. Aparılan səmərəli danışıqların nəticəsi olaraq 2024-cü il üçün Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə tarif dərəcələri və yüklərin daşınma planı təsdiq edilib.

*(ardı 10-cu səhifədə)*

## "Ələt azad iqtisadi zonasının inkişafı ilə əlaqədar əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 17 sentyabr tarixli 487 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Ələt azad iqtisadi zonasının inkişafı ilə əlaqədar əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 17 sentyabr tarixli 487 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1872 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissə ilə yaradılmış İşçi qrupun tərkibi aşağıdakı redaksiyada verilsin:

"**İşçi qrupun rəhbəri**

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

**İşçi qrupun üzvləri:**

Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi

Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı

Salyan Rayon İcra Hakimiyyətinin başçısı

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti.".

2. 2-ci hissə üzrə:

2.1. birinci abzasdan "müvafiq sahədə nüfuzlu beynəlxalq məsləhətçi şirkətləri cəlb etməklə" sözləri çıxarılsın;

2.2. 2.1-ci bənddən "və onun həyata keçirilməsinin ətraflı planını" sözləri çıxarılsın;

2.3. 2.2-ci bənddən "ərazi sərhədləri, həmin sərhədlər daxilində" və "hüdudları, Azad Zona ərazisinin" sözləri çıxarılsın;

2.4. 2.4-cü bənd üzrə:

2.4.1. birinci abzasdan "ilkin mərhələdə" sözləri çıxarılsın;

2.4.2. 2.4.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.4.2. əsas nəqliyyat və mühəndis-kommunikasiya təminatı sisteminin və xətlərin, digər xidmətlərin təmin edilməsi planını;";

2.4.3. aşağıdakı məzmunda 2.4.3–2.4.5-ci yarımbəndlər əlavə edilsin:

"2.4.3. mühəndis-axtarış işlərinin nəticələrini, o cümlədən mühəndis-geoloji axtarışların nəticələrini əks etdirən materialları;

2.4.4. ətraf mühitin mövcud vəziyyəti barədə məlumatları;

2.4.5. aşağıdakı tədbirlərin həyata keçirilməsi üçün xərclər proqnozunu:

2.4.5.1. mövcud tikililərin və mühəndis-kommunikasiya qurğuları və xətlərinin köçürülməsi;

2.4.5.2. bu Sərəncamın 2.1-ci bəndində göstərilən inkişaf konsepsiyasının həyata keçirilməsi;

2.4.5.3. bu Sərəncamın 2.4.2-ci yarımbəndində göstərilən işlərin həyata keçirilməsi.";

2.5. 2.5-ci bənd ləğv edilsin.

3. 3-cü hissə ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 yanvar 2024-cü il**

## Azərbaycan Respublikası dövlət büdcəsinin tərkibində "Nəqliyyat vasitələrinin utilizasiyası fondu"nun yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, güzəştin və birdəfəlik ödənişin maliyyələşdirilməsi, habelə nəqliyyat vasitələrinin utilizasiyası üzrə tədbirlərin stimullaşdırılması və təşviqi məqsədilə "Tullantılar haqqında" Azərbaycan Respublikası Qanununun 14-3-cü maddəsinə və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası dövlət büdcəsinin tərkibində "Nəqliyyat vasitələrinin utilizasiyası fondu" yaradılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və "Təmiz şəhər" Açıq Səhmdar Cəmiyyəti bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

**3.** Bu Sərəncam 2024-cü il fevralın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 27 yanvar 2024-cü il**

## Orxan Əsgərovun məzarı ziyarət edildi

**Yanvarın 27-də xarici işlər naziri Ceyhun Bayramov və nazirliyin rəhbər heyəti İkinci Şəhidlər xiyabanına gələrək Azərbaycanın Tehrandakı səfirliyinə xain terror hücumunun qarşısının alınması zamanı şəhid olan mühafizə xidmətinin rəisi Orxan Əsgərovun məzarını ziyarət edib.**



Qeyd edək ki, səfirliyimizə qarşı xain hücum dünya ölkələrinin və beynəlxalq təşkilatların rəsmiləri, xarici işlər nazirləri, səfirlər, XİN təmsilçiləri, siyasətçilər və jurnalistlər tərəfindən qətiyyətlə pislənib və qəbuledilməz hesab olunub. Bəyanat, açıqlama və paylaşımlarda terror hadisəsinin tam araşdırılması və təqsirkarların cəzalandırılması tələbi ifadə edilib.

**XQ**

## XİN: şərhlər, bəyanatlar



**Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilmiş terror hücumundan bir il ötür. Azərbaycanın Xarici İşlər Nazirliyi bununla bağlı bəyanat yayıb. Bəyanatda deyilir:**

"Terror hücumu nəticəsində səfirliyin bir əməkdaşı həlak olmuş, digər iki əməkdaşı isə müxtəlif bədən xəsarətləri alaraq ağır yaralanmışdır. Hücumdan sonra insanların həyat və təhlükəsizliyinə yaranmış ciddi risk vəziyyəti nəzərə alınaraq, səfirliyin əməkdaşlarının və ailə üzvlərinin təxliyəsi həyata keçirilmişdir.

Səfirliyə qarşı törədilmiş terror aktı fonunda akkreditasiya ölkəsi kimi İran tərəfi "Diplomatik Əlaqələr haqqında Vyana Konvensiyası"ndan irəli gələrək səfirliyin binasının hər cür hücumlardan qorunması və onun əməkdaşlarının təhlükəsizliyinin təminatına dair öhdəliyini yerinə yetirməmişdir. Terror aktından sonra bir çox dövlətlər və beynəlxalq təşkilatlar beynəlxalq münasibətlərdə diplomatik missiyalara hücumun qəbuledilməz olduğu, terror aktının qətiyyətlə pislındiyi bəyanatlarla çıxış etmişlər.

Terror hücumu ilə bağlı Azərbaycanla İran arasında yaranmış vəziyyətin aradan qaldırılması, sözügedən terror aktının təşkili və törədilməsində əli olanların ən ağır şəkildə cəzalandırılması, səfirliyin təhlükəsizliyinə tam təminatın verilməsi istiqamətində son bir il ərzində iki ölkənin rəsmi şəxsləri və aidiyyəti qurumları arasında mütəmadi təmaslar davam etdirilmiş, Azərbaycan tərəfinin gözləntiləri qarşı tərəfə çatdırılmışdır. İran tərəfi aparılan istintaq tədbirləri barədə mütəmadi əsasda Azərbaycan tərəfini məlumatlandırmış, uzun müddət aparılmış prosesdən sonra terror aktını törədən şəxsin məhkəməsinin ilk iclasını 27 yanvar 2024-cü il tarixinə təyin etmişdir.

Səfirliyə qarşı törədilmiş terror aktının birinci ildönümündə şəhidimizin yaxınlarına dərin hüznlə başsağlığı verir, bu hücumu bir daha qətiyyətlə pisləyir, günahkarların öz layiqli cəzalarına çatmaları və gələcəkdə bu qəbildən əməllərin qarşısının alınması istiqamətində İran tərəfindən tezliklə nəticəyönümlü addımların atılacağını gözləyirik".

*

**Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Niderland Krallığının xarici işlər naziri Hanke Bruins Slotun parlamentdə səsləndirdiyi fikirlərlə bağlı yerli medianın sualını cavablandırıb.**

XİN-in mətbuat katibi bildirib ki, Niderland rəsmisi parlament nümayəndələrinin sorğusuna cavab olaraq növbəti dəfə ittihamedici açıqlama verərək, Azərbaycan tərəfinin bəyanatlarını açıq-aşkar təhrif edib. Avropa ölkələrinin rəsmiləri tərəfindən belə məsuliyyətsiz fikirlərin səsləndirilməsi ilk dəfə deyil. Bu açıqlamalar Azərbaycanın daxili işlərinə qarışmaq cəhdləri olmaqla yanaşı, bölgəmizdə postmünaqişə reallıqlarına qərəzli yanaşmanın nümunələridir.

"Belə bəyanatlar, eləcə də Azərbaycana qarşı sanksiya tətbiq edilməsi barədə hədələyici fikirlər ikitərəfli münasibətlərə və Azərbaycan-Avropa İttifaqı əlaqələrinə zərbədir.

Niderlandın xarici işlər nazirinin ölkəmizə səfər niyyətinə gəldikdə qeyd edək ki, belə bir səfərin Azərbaycan tərəfindən təxirə salındığı məlumdur. Azərbaycan tərəfi səfər zamanı Azərbaycan-Ermənistan normallaşma prosesinin və ya ölkəmizin daxili məsələlərinin deyil, yalnız ikitərəfli münasibətləri müzakirə etmək niyyətinin olduğunu qarşı tərəfə bildirib.

Niderland tərəfini bölgənin beynəlxalq hüququn norma və prinsiplərinə hörmət əsasında gələcək inkişafına maneçilik törədən belə bəyanatlara son qoymağa çağırırıq".

**XQ**

## AŞPA-nın ölkəmizə qərəzli münasibəti dözülməz həddə çatdı

**Avropa Şurası Parlament Assambleyasının Azərbaycana qarşı indiki qərəzli münasibətinin əsas səbəbi məhz ölkəmizin öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi ilə bağlıdır. Açıq deməliyik ki, ölkəmizdəki proseslərlə bağlı AŞPA-nın müxtəlif rəyləri hər zaman mövcud idi. Azərbaycan nümayəndə heyəti də buna uyğun olaraq adekvat mövqe ifadə edirdi. Baş tutan müzakirələrdə hər hansı məsələlərlə bağlı razılaşmanın əldə edilib-edilməməsi halları da yaşanırdı. Ancaq bu, bir işçi prosesdir və bu proses 20 il ərzində davam edirdi.**

Bu sözləri jurnalistlərə müsahibəsində xarici işlər naziri Ceyhun Bayramov söyləyib. Nazir AŞPA-da baş verənləri "ölkəmizə qarşı atılan tamamilə qərəzli və qəbul edilməyən addım" adlandırıb.

Fransa ilə Azərbaycan arasında olan münasibətlərdən danışarkən C.Bayramov vurğulayıb: "Təəssüf ki, qəbul edilməyən münasibətlərin təşəbbüskarı həmişə Fransa olub. Bəzi hallarda bu kimi proseslər Fransa tərəfindən açıq bəyanatlar, ölkəmizə qarşı təhdid və hədə elementlərini özündə ehtiva edən açıqlamalardan ibarətdir. Bir çox hallarda Azərbaycan ictimaiyyəti bunlar barədə məlumatlı olmur. Tam məsuliyyətlə qeyd edə bilərəm ki, müxtəlif platformalarda örtülü şəkildə ölkəmizə qarşı aparılan sistemli işin arxasında dayanan əsas ölkə məhz Fransadır. Bu addımları atan ölkəyə qarşı da Azərbaycan adekvat cavab verəcək. Fransa atdığı addımların yanlış olduğunu nə zaman bildirərsə, biz o zaman onu dəyərləndirərik".

Mina məsələsinə toxunaraq nazir bildirib ki, Ermənistan 2020-ci ilin noyabr ayından etibarən 2021-ci ilin iyun ayına qədər mina xəritəsinin mövcudluğunu inkar edib. İlk dəfə olaraq 2021-ci ilin iyun ayında beynəlxalq vasitəçilərin Ermənistana təzyiqi nəticəsində rəsmi İrəvan Azərbaycana vasitəçilər vasitəsilə mina xəritələrini hissə-hissə təqdim etməyə başladı.

"Biz mina məsələsində Ermənistanın bütün platformalarda ifşasına davam edirik. ANAMA tərəfindən verilən məlumata görə, Ermənistanın yaratmaq istədiyi yeni "təmas xətti", – hansı ki, 480 kilometr uzunluğunda, 2 kilometr dərinlikdə, 960 kvadrat kilometr ərazidir, – son 3 il ərzində tamamilə minalanıb. Həmin əraziyə 500 minə yaxın mina döşənib. Məgər Ermənistan bunları bilmir, onların xəritəsi mövcud deyil? Buna inanmaq mümkün deyil", – deyə nazir vurğulayıb.

**XQ**

## Türkiyə naziri Bakıda

**Energetika naziri Pərviz Şahbazov ölkəmizdə səfərdə olan Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Söhbət zamanı hazırda iki ölkənin enerji gündəliyinin prioritet istiqamətləri üzrə geniş müzakirələr aparılıb. Azərbaycandan Türkiyə və Avropaya təbii qaz təchizatının mövcud vəziyyəti və uzunmüddətli perspektivləri, TANAP-ın genişləndirilməsi, həmçinin İğdır-Naxçıvan qaz kəmərinin inşası və bu il istismara verilməsindən irəli gələn məsələlər nəzərdən keçirilib.

Bundan başqa Naxçıvanın "yaşıl enerji zonası" kimi inkişafında Türkiyə ilə əməkdaşlığın önəmi vurğulanıb və bu xüsusda burada istehsal olunacaq elektrik enerjisinin Türkiyəyə ixracı, buradan Avropaya nəqli imkanlarının araşdırılması, bu məqsədlə infrastrukturun yaradılması kimi məsələlərin həlli ilə bağlı hər iki tərəfin iştirakı ilə yaradılmış İşçi qrupu çərçivəsində fəaliyyət nəzərdən keçirilib. Bu istiqamətdə növbəti addımlar müəyyənləşdirilib.

***XQ***

## Cenevrədə soydaşlarımızın etiraz aksiyası

**Yanvarın 27-də Azərbaycanlıların İsveçrədəki Mədəniyyət Mərkəzi tərəfindən BMT-nin Cenevrə bölməsinin qarşısında aksiya təşkil edilib.**



Aksiyanın məqsədi İsveçrənin və dünya ictimaiyyətinin diqqətini Ermənistanın Azərbaycan ərazilərini minalarla çirkləndirməsi probleminə yönəltmək və Ermənistandan Qarabağdakı mina sahələrinin xəritələrini verməyi tələb etmək olub.

Aksiya zamanı "Mina sahəsi" adlı simulyasiya təlimi keçirilib, yerli sakinlərə və şəhərin qonaqlarına Azərbaycan barəsində ətraflı informasiya verilib və məlumat vərəqələri paylanılıb.

**XQ**

# Azərbaycan – İran münasibətlərində ədalət sınağı



*(əvvəli 1-ci səhifədə)*

Hadisə ilə bağlı Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətində Cinayət Məcəlləsinin 12.2, 120.2.1, 12.2, 120.2.4, 12.2, 120.2.11, 12.2, 29, 120.2.7, 12.3, 214.2.1, 12.3, 214.2.3 və 12.2, 228.2.1-ci maddələri ilə cinayət işi başladılmışdır.

Prezident İlham Əliyev qanlı olayı sərt şəkildə qınamışdır. Ölkəmizin Xarici işlər nazirinin müavini Xələf Xələfov terror hücumu ilə əlaqədar Azərbaycan tərəfində "lazımi qədər tutarlı sübutlar"ın olduğunu qeyd etmişdir. Bir sözlə, ölkəmiz məsuliyyətin İranda olduğunu vurğulamış və hücumu "terror aktı" kimi qiymətləndirmişdir.

Azərbaycan XİN İrandakı səfirliyin əməkdaşlarının evakuasiya ediləcəyini açıqlamışdır. Yanvarın 30-da bu proses gerçəkləşmişdi. Həmin gün O.Əsgərovun cənazəsi, yaralanmış şəxslər və səfirliyin təxliyə edilmiş əməkdaşları - ailə üzvləri daxil olmaqla 53 nəfər Tehrandan təyyarə ilə Bakıya gətirilmişdir. Yeri gəlmişkən, ali diplomatik missiyamızın fəaliyyəti hələlik bərpa olunmayıb və hazırda onun missiyasını Təbrizdəki Baş Konsulluğumuz icra edir. Bu günlərdə yayılmış məlumatda isə bildirilib ki, İslam respublikasındakı səfirliyimizin işinin davamı üçün "yol xəritəsi" hazırlanmaqdadır.

Azərbaycanın İrandakı səfirliyinə hücum beynəlxalq miqyasda da böyük əks-səda doğurmuşdu. BMT-nin baş katibi Antoniu Quterreş, Avropa İttifaqı, NATO, GUAM, 60-dan çox ölkənin dövlət başçısı, xarici işlər nazirləri və səfirləri hadisəni terror aktı kimi pisləmişdir.

İran rəsmilərinin bəyanatlarında qanlı hücumun siyasi motivli olduğuna dair heç bir əlamət yoxdur. Ölkənin hüquq-mühafizə orqanlarının təmsilçiləri hadisənin şəxsi zəmində törədildiyini iddia etmişlər. Ancaq onların bəyanatlarındakı ziddiyyətli məqamlar olayın siyasi zəmində gerçəkləşdirildiyinə dair şübhələri artırmışdı. Məsələn, sonradan vəzifəsindən çıxarılmış Tehranın polis rəisi Sərdar Hüseyn Rəhimi bildirmişdir ki, ilkin istintaqda hücum edən şəxsin motivinin şəxsi və ailə problemləri olduğuna inanılır. O, əlavə etmişdir ki, həmin şəxs 14 yaşlı qız və 7 yaşlı oğlanla birlikdə, "Pride" markalı avtomobillə inzibati binaya getmişdir. Tehranın Cinayət Prokurorluğunun rəhbəri Məhəmməd Şəhriyarinin sözlərinə görə isə ilkin istintaqda Y.Hüseynzadə 2022-ci ilin aprel ayında həyat yoldaşının səfirliyə getdiyini və evə qayıtmadığını iddia etmişdir. Belə təəssürat yaranmışdı ki, təqsirləndirilən şəxs hadisəni buna görə törədib.

İranın İslam İnqilabı Keşikçiləri Korpusu ilə əlaqəli "Tasnim" xəbər agentliyi yazmışdır ki, "ilin əvvəlində təcavüzkarın həyat yoldaşı ailəsinin digər iki üzvünün köməyi ilə Azərbaycana getmiş və geri qayıtmamışdır". Agentlik onu da vurğulamışdı ki, Y.Hüseynzadənin həyat yoldaşı "keçən ilin aprelində Azərbaycanın Tehrandakı səfirliyinə baş çəkmiş və bundan sonra evə qayıtmamış", "təqsirləndirilən şəxs Azərbaycanın Tehrandakı səfirliyinə çoxsaylı müraciətlər etmiş, səfirlik rəsmilərindən lazımi cavab almadığına görə hücum qərarına gəlmişdir". BBC-nin farsca xidməti isə qeyd etmişdir ki, bu açıqlama Y.Hüseynzadənin, guya, həyat yoldaşının səfirlikdə olduğunu düşündüyü və bu səbəbdən ora silahla getdiyinə digər məlumatlarla ziddiyyət təşkil edir. Ümumən, olay xüsusundakı fikirlərdə ziddiyyətli cəhətlər çoxdur...

Azərbaycan ictimaiyyətində böyük qıcıq doğurmuş ən başlıca məqam isə İran telekanallarının terrorçuya efir verməleri, onu kultlaşdırmaları olmuşdu. Bu hal gerçək motivləri inkar etmək, hadisəyə obyektiv qiymət verməkdən uzaq əlamət kimi qiymətləndirilmişdi.

***

İndi isə keçək Azərbaycanın Xarici İşlər Nazirliyinin dünənki bəyanatına. Hesab edirik ki, sənəddəki ən vacib məqam budur: "İran tərəfi aparılan istintaq tədbirləri barədə mütəmadi əsasda Azərbaycan tərəfini məlumatlandırmış, uzun müddət aparılmış prosesdən sonra terror aktını törədən şəxsin məhkəməsinin ilk iclasını 27 yanvar 2024-cü il tarixinə təyin etmişdir.

Səfirliyə qarşı törədilmiş terror aktının birinci ildönümündə şəhidimizin yaxınlarına dərin hüznlə başsağlığı verir, bu hücumu bir daha qətiyyətlə pisləyir, günahkarların öz layiqli cəzalarına çatmaları və gələcəkdə bu qəbildən əməllərin qarşısının alınması istiqamətində İran tərəfindən tezliklə nəticəyönümlü addımların atılacağını gözləyirik".

Azərbaycan XİN-in bəyanatında daha bir vacib məqam da var. Sənəddə hər zamankı prinsipial mövqe ifadə olunur və bildirilir ki, səfirliyə qarşı törədilmiş terror aktı fonunda akkreditasiya ölkəsi kimi İran tərəfi "Diplomatik Əlaqələr haqqında Vyana Konvensiyası"ndan irəli gələrək, səfirliyin binasının hər cür hücumlardan qorunması və onun əməkdaşlarının təhlükəsizliyinin təminatına dair öhdəliyini yerinə yetirməmişdir.

***

Əvvəldə də vurğuladıq ki, olay Azərbaycan–İran münasibətlərindəki gərginliyin ən pik həddə çatması ilə müşayiət olunmuşdu. Hələ bəzən elə təəssürat yaranmışdı ki, iki ölkə arasında müharibə başlayacaq. Belə düşüncələrin gündəmə gəlməsi heç də elə-belədən deyildi. Nəzərə alaq ki, Bakı-Tehran münasibətlərinin gərginləşməsi fonunda, Tehran-İrəvan əlaqələrində istiləşmə müşahidə edilmişdi.

Ermənistanın ərazi bütövlüyünün toxunulmazlığının özü üçün "qırmızı xətt" olduğunu bəyan edən İran dövləti prinsiplərinin ifadəsi kimi qonşu ölkənin Qafan şəhərində konsulluq açmışdı. Üstəlik, terror hücumundan ötən altı aya yaxın müddətdə İranın müxtəlif siyasi dairələri və media orqanları tərəfindən Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə təhdid ruhlu bəyanatlar səslənmişdi. Əlbəttə, Azərbaycanda da anti-İran ab-havası güclənmişdi. Bütün bunlar isə 27 yanvar terrorunun siyasiləşməsində müstəsna rol oynamışdı. Lakin gözləntilərin, hətta bəzən beynəlxalq miqyasdakı qızışdırıcı fikirlərin olmasına baxmayaraq, hazırda Azərbaycan və İran arasındakı gərginlik sengiməyə doğru gedir. Bu, hər iki ölkə rəsmilərinin təmasları nəticəsində mümkün olub.

İndi Bakı–Tehran münasibətləri baxımından mühüm nüanslardan biri Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yolun məhz İran ərazisindən keçməsinə dair razılığın əldə olunmasıdır. Məlumdur ki, bu razılıq rəsmi İrəvanın Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatı ilə üzərinə götürdüyü öhdəliklərdən yayınması fonundadır. O da məlumdur ki, Azərbaycanın Ermənistandan tələbi Naxçıvana yolun "Azərbaycandan Azərbaycana yol" məntiqinə əsaslanması ilə bağlıdır. Yəni, ölkəmiz ərazidə gömrük və sərhəd nəzarətinin qurulmasına qarşıdır və bunu özünün legitim haqqı kimi qiymətləndirir. İrəvan isə mövcud yanaşmanı suverenliyinə qəsd olaraq qələmə verir. Bu ziddiyyətlər müstəvisində Tehranın Naxçıvana yolun öz ərazisindən keçməsinə razılığı, kifayət qədər, pozitiv məqamdır.

Bəli, ölkəmiz üçtərəfli bəyanata əsasən Naxçıvana yolun açılması məntiqindən uzaqlıq şəraitində İranı seçir. Ermənistan rəsmiləri isə bildirirlər ki, Tehranın həmin yola razılıq verdiyi şərtləri onlar da yerinə yetirə bilərlər. Əlbəttə, İrəvanda belə düşünülür ki, İrandan keçmə sərhəd və gömrük nəzarətinin tətbiqi ilə gerçəkləşəcək. Ancaq, hələlik, mövcud istiqamətdə hansı prosedurun tətbiq ediləcəyi açıqlanmır.

Digər tərəfdən, nəzərə alaq ki, Azərbaycan Naxçıvana yol xüsusunda Ermənistanın təhlükəsizlik təminatındansa, İranın təhlükəsizlik təminatına üstünlük verəcək. Bu isə o deməkdir ki, İran gömrük və sərhəd nəzarəti tətbiq etsə də, məqbuldur. Birincisi, bununla bağlı işğal illərində gerçəkləşmiş təcrübə var. İkincisi, Bakı təhlükəsizlik xüsusunda İrəvanın təminatlarına inanmır və mövqeyində haqlıdır. Üçüncüsü, ən başlıcası isə Bakı-Tehran münasibətləri baxımından nəzərə çarpan gərginləşmənin ötən ilin yarısından sonra yumşalmağa doğru getməsi özünü hər iki ölkənin "3+3" regional platforması çərçivəsindəki əməkdaşlığında da göstərməkdədir. "Region region ölkələri üçündür" şüarı ilə gerçəkləşməkdə olan bu əməkdaşlıq gələcəyə nikbin baxmaq üçün əsas verməkdədir. Bəs, tam müsbət dinamika əldə olunacaqmı?

***

Beləliklə, dünən, üzərindən düz bir il keçdikdən sonra İran tərəfi qanlı olayla bağlı hüquqi qiymətin verilməsi üçün məhkəməyə start verdi. Azərbaycan XİN-in dünənki bəyanatında vurğulandığı kimi, ötən müddətdə terror hücumu ilə bağlı Azərbaycanla İran arasında yaranmış vəziyyətin aradan qaldırılması, sözügedən terror aktının təşkili və törədilməsində əli olanların ən ağır şəkildə cəzalandırılması, səfirliyin təhlükəsizliyinə tam təminatın verilməsi istiqamətində iki ölkənin rəsmi şəxsləri və aidiyyəti qurumları arasında mütəmadi təmaslar davam etdirilmiş, Azərbaycan tərəfinin gözləntiləri qarşı tərəfə çatdırılmışdır.

Yeri gəlmişkən, bəyanatda qeyd edilənlər Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovun dünən jurnalistlərə açıqlamasında da vurğulanıb. Nazir bir qədər də konkret şəkildə bildirib ki, ölkəmizin İrandakı səfirliyinin fəaliyyətinin bərpası üçün iki əsas məqama diqqət yetirəcəyik. Birincisi, terror aktı ilə bağlı istintaqın başa çatması və qərarın qəbul edilməsi. İkincisi, səfirliyimizin təhlükəsizliyinə tam şəkildə təminat verilməsi: "Səfirliyimizin əməkdaşlarının və onların ailə üzvlərinin təhlükəsizliyi tam təmin edilmədiyi üçün onlar Azərbaycana gətirilmişdi".

Bəli, qalır gözləntilərin özünü doğrultması. Bu, Bakı–Tehran münasibətləri baxımından haqqında söz açdığımız hazırkı müsbət dinamikanın inkişafı baxımından həlledici amildir. Deməli, İran məhkəməsinin 27 yanvar terroruna layiqli hüquqi qiymət verməsi həm ədalətin şərtidir, həm də müstəsna anlam daşıyan siyasi jestdir.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

"Mən bu cahana sığmazam"
***Nəsimi***

# "3+3": Cənubi Qafqazın geosiyasi xilas formulu

**II məqalə**




## Sülh şərəf və məsuliyyət tələb edir

Bəzi dövlətlərin və dövlətlər qrupunun gücü çoxdur və hər şeyi var, şərəfi yoxdur. Cənubi Qafqazda da məsuliyyətini hələ anlamayan siyasilər mövcuddur (biz "xalq" və "dövlət" terminlərini bilərəkdən işlətmirik, çünki özlüyündə bu anlayışlar şərəfdir və bunu qəbul etməmək isə məsuliyyətsizlikdir). Həm də soydaşı Hüseyn Cavid olanların əsas məqsədi qan izini kəsməkdən ibarətdir. Bu da regionda hər bir geosiyasi aktora hörmətlə yanaşmanı tələb edir.

Siyasətin "soyuq məntiqi" üzü ilə Şərq emosionallığının kəsişməsində Cənubi Qafqazın hazırkı xilas yollarına baxmaq faydalıdır. Çünki indi bütün dünya anlayır ki, humanizm, humanitarlıq, məsuliyyət, şərəf, müdriklik və ədalət olmadan siyasətdə və geosiyasətdə qalıcı müsbət nəticə almaq imkansızdır. Azərbaycan rəhbərliyinin irəli sürdüyü "3+3" formulu məhz bu keyfiyyətlərinə görə təhlükəsizlik və qalıcı əməkdaşlığın geosiyasi aspektində mükəmməldir. Çünki bu formulun yaradıcı qaynağında türk siyasi liderliyinin intellektual fəzilətliliyi mövcuddur. Konkret olaraq, hər bir siyasi aktora hörmət, onun mövqeyini səbrlə dinləmək və ortaq faydalı qərarlar qəbul etməyə açıq bir formuldur.

Burada iştirakı nəzərdə tutulan dövlətlərin böyük və kiçik bölgüsü də yoxdur – hər bir dövlət eyni hüquqa malikdir. Eyni zamanda, geosiyasi, siyasi və diplomatik baxımdan olduqca əhəmiyyətli olan 3 faktor sintezdə mövcuddur. Bu artıq ciddi məntiqi yanaşma əsasında təhlil tələb edir.

## "3+3"-ün "siyasi semantikası"

Ədalətlilik, reallığı obyektiv qəbul etmək və konstruktivlik şərtləri daxilində bu formulun "siyasi semantikası"nın mərkəzində "3+3"ün 6-dan çox etdiyi məntiqi dayanır. Yəni "3+3" onu ifadə edir ki, reallaşması ilə 6 dövlət Cənubi Qafqazda geosiyasi, təhlükəsizlik və əməkdaşlıqda keyfiyyət dəyişikliyi edə bilərlər. Bunun üçün tarixi, siyasi və müasirliyin "ortaq zaman kəsimində" real imkanlar var. Həmin məkanların potensialdan aktuallığa keçməsinin təminatçısı isə Azərbaycan-Türkiyə tandemidir! Ayrıca, Azərbaycan regionun lider dövləti kimi həmin formulun qalıcı olması üçün geniş imkanlara malikdir. Deməli, "3+3"ün "siyasi semantikası" onun siyasi-diplomatik, təhlükəsizlik və əməkdaşlıq aspektləri üzrə xarakteristikalarını müəyyən edir.

## "3+3": tarix və müasir platforma

Bu formulun başlıca ideya gücü regionun geosiyasi tarixi ilə müasir mərhələnin reallıqlarının kəsişdiyi sahədə düzgün xilas yolunu göstərməsi ilə bağlıdır. Çünki II Qarabağ savaşına qədər olan uzun müddətdə Cənubi Qafqazda konfrontasiya geosiyasi platforması dominantlıq etmişdi. Onun təməlində isə bütövlükdə regiona böyük güclərin mübarizəsi prizmasından baxmaq dayanırdı. O halda yerli ölkələr həmin mübarizənin birbaşa hədəfi və qurbanları idilər. Cənubi Qafqaz dövlətlərinin əsl maraqlarını nə soruşan vardı, nə də gözləyən. Həmin maraqlara yalnız böyük güclərin öz maraqlarına münasibətdə qiymət verilirdi. Məsələn, Ermənistanın müstəqil və azad olması deyil, onun kimə daha faydalı maşalıq etməsi önəm kəsb edirdi. Bu mənada erməni cəmiyyətini və xalqını ittiham etmək doğru olmazdı. Bu xalq əsrlərlə bu cür istismarçı və diktəçi münasibətin qurbanları olub.

Bunun fonunda Azərbaycana münasibət fərqli idi. Çünki ölkəmiz güclü potensiala və böyük dövlətçilik ənənəsinə malik, cəmiyyətinin bütün təsirlərə müqavimət göstərə biləcək səviyyədə olması reallığına malikdir. Mövcud səbəbdən, onunla daha sərt, məcburedici və daha əzici davranıblar. Bu xalqı daim sıxışdırılıb, onu tabe etmək cəhdləri çox olub. Ancaq reallıq göstərdi ki, sıxışdıranlar iki faktı nəzərə ala bilmirlər və ya buna intellektləri çatmır. Onlardan biri Azərbaycan xalqının həmişə ən çətin anlardan güclü birləşmək qabiliyyətinin olmasıdır. Digər isə ən böhranlı dönəmlərdə belə güclü lideri meydana çıxarması! Ulu Öndər Heydər Əliyev XX əsrdə XXI əsrin əvvəllərində Azərbaycan xalqının ən böyük sərvətidir. Böyük Lider fəaliyyəti ilə bütün regionun geosiyasi ruhunu dəyişdi və "3+3"ün meydana gəlməsi naminə təməl yaratdı.

Gürcüstana münasibət də faktiki olaraq fərqlənmirdi. Gürcüstan indi də həmin güclərin maraqlarının toqquşduğu məkan olaraq qalır. 2008-ci il Rusiya-Gürcüstan savaşı bir daha göstərdi ki, nə Kremli, nə də Ağ Evi, Londonu, Parisi, Brüsseli, Berlini gürcü xalqının maraqları elə də maraqlandırmır. Biri Gürcüstanın iki regionunu işğal etdisə, digərləri buna qarşı real mübarizəyə qalxmadılar, fədakar və dönməz mövqe nümayiş etdirmədilər.

Bütün bunlar dövlətlərarası münasibətlər kontekstində regiona geosiyasi konfrontasiyanı və onun əlamətlərini – qarşılıqlı ittihamlar, çəkişmələr, etnik və dini dözümsüzlük, separatizm, münaqişələr və terror gətirdi. İnsanlar öz yurdlarından qovulur və adını "könüllü yerdəyişmə" qoyurdular. Xalq sürgün edilir və adını "təhlükəsizliyin təmini" qoyurdular. Müsəlmanlar hər yerdə və hər zaman "cinayətkar", "günahkar" olurdular və adını "köhnəliklə mübarizə" qoyurdular.

Geosiyasi konfrontasiyanın pik səviyyəsi Ermənistan və havadarlarının Azərbaycanın ərazisinin 20 faizə qədərini işğal etməsi ilə başladı. Düşmən görünməmiş vəhşilik, saygısızlıq və dəhşətli qətliamlarla azərbaycanlıların üstünə gəldi. Söhbət, sadəcə, özgə torpağını işğal prosesindən getmirdi. Bütöv bir xalqın, mədəniyyətin, özgürlüyün, mövcudluğun yer üzündən silinməsi məqsədi vardı. Və belə antibəşəri və antiinsani hərəkətlərə bu və ya digər dərəcədə regionun başqa böyük dövlətləri dəstək verirdilər. Türkiyədən başqa! Rusiya fəal idi, ABŞ və Avropa İttifaqı üzvləri dolayısı ilə "tülkü diplomatiyası" çərçivəsində "demokratiya", "insan haqları", "liberalizm", "xalqların öz müqəddəratını təyin etmə hüququ" və s. kimi terminləri istismar etməklə, işğala və vəhşiliyə haqq qazandırdılar! Proses 30 il davam etdi! 2020-ci il sentyabrın 27-dən Cənubi Qafqazda tarix dəyişməyə başladı...

## Azərbaycan: regional güc!

Biz rahat və qürurluyuq! Bu yarımbaşlıqda ifadə olunan fikri anlamayanlar rahatsız olsunlar, çünki onlar xəyal dünyasında yaşayırlar! Regionda köhnə geosiyasi konfrontasiyanı Azərbaycan məhv etdi və postmüharibə mərhələsinin geosiyasi məntiqinə "damğasını" dərhal vurdu: bu regionda kimsə təkbaşına at oynatmayacaq və region dövlətləri səmimi əməkdaşlıq edəcəklər. Bunun üçün rəsmi Bakı və Ankara konkret formul da təklif etdi - "3+3"! İndi bu formulun geosiyasi və təhlükəsizlik anlamına baxaq.

Burada təhlükəsizlik kontekstində mərkəzi siyasi və geosiyasi faktor Cənubi Qafqazın 3 dövlətinin maraqlarıdır. Vurğu regionda maraqları olan böyük dövlətlərdən yerli ölkələrə keçir! Əsas və başlanğıc aksiom! Azərbaycan rəhbərliyinin qəti mövqeyi və israrlı tələbi bundan ibarətdir. Onun üç konkret əlamətini göstərə bilərik.

**Birincisi,** Qafqaz Evi ideyasının dirçəlişi.

**İkincisi,** Azərbaycan-Ermənistan münasibətlərinin, guya, normallaşması ilə məşğul hər bir "saxta vasitəçi"nin neytrallaşdırılması. Bu, rəsmi Bakının atdığı konkret siyasi-diplomatik addımlarda ifadə olurnur.

**Üçüncüsü,** Azərbaycanın GUAM-ı regionda kommunikasiyaların bərpası aspektində fəallaşdırmağa başlaması.

Deməli, formulun təməl faktoru "yerli üçlük"dür. Üç böyük dövlətin "yerli üçlüyün" əməkdaşlıq və təhlükəsizlik qarantı olması formulun başqa aspektidir. Yəni Rusiya, Türkiyə və İran Cənubi Qafqazın bu üç ölkəsinə nəyisə diktə etmək, onlara öz maraqlarını qəbul etdirmək və əmrləri ilə hərəkət etmələrinə nail olmaq naminə formula daxil edilməmişlər. Tarixi olaraq regionda təbii maraqları olan bu üç böyük dövlət Cənubi Qafqaz ölkələrinin qalıcı əməkdaşlığı və təhlükəsizliklərinin ortaq təmini naminə iştirak etməlidirlər. Bu isə, obrazlı desək, formulda üç yerli dövlətin təhlükəsizlik və əməkdaşlıq "kəməri" ilə əhatə olunması deməkdir! Real geosiyasətdə Rusiya, Türkiyə və İran kənar dağıdıcı güclərin yerli 3 ölkəyə hər hansı təsiretmə cəhdlərinin qarşısını almalı olan "ilk müdafiə" xəttini təşkil etməlidirlər. Onlar bunda maraqlıdırlar. Çünki ancaq o halda 3 yerli dövlət davamlı olaraq regiona yaxın üç böyük güclə əməkdaşlığı çox inkişaf etdirə bilər. Bu da həm konkret ölkədaxili vəziyyətin sabitliyinə, həm də bir sıra qazanclı beynəlxalq layihələrə çıxış üçün lazımi şərait və reallaşma mexanizmləri yaradacaqdır!

Bütün bu imkanları geosiyasi konfrontasiya tərəfdarlarının çox gözəl və dərindən bildiklərinə qətiyyən şübhə etmirik! Ona da tam əminik ki, onların Azərbaycana qarşı tutduqları əsassız, qərəzli, böhtançı, qeyri-konstruktiv və ədalətsiz mövqenin kökündə məhz bu faktor dayanır. Geosiyasi konfrontasiyaçıları erməni xalqının taleyi maraqlandırmır. Onlar ermənilərin aqibətinə "bizə uyğun yaşayacaqlarsa, xoşbəxtdirlər" və belə olmasa, "axmaq və köhnəlikçidirlər" məntiqi ilə yanaşırlar.

Onları hətta Nikol Paşinyanın danışığı da maraqlandırmır. O qüvvələr N.Paşinyanın danışanda saqqalının tərpənməsi ilə keçinin saqqalının tərpənməsi arasında fərq görmürlər. Qalır ermənilərin bunları anlamaları!

Belə görünür ki, "3+3" formulunu sözdə bütün böyük geosiyasi güclər dəstəkləsələr də, onların sırasında regionda tamamilə fərqli geosiyasi mənzərənin yaranmasını qəbul etməyənlər də mövcuddur. Həmin dairələr açıq və ya gizli bu formula qarşı fəaliyyət göstərirlər. Faktiki olaraq, bu dairələrin fəaliyyətində müxtəlif üsullarla Azərbaycanın başlatdığı postmüharibə mərhələsində regional təhlükəsizlik və əməkdaşlığın təmini ilə bağlı siyasi-diplomatik prosesi pozmaq üstünlük təşkil edir. Deməli, faktiki olaraq, "3+3" formulunun həyata keçməsində yeni bir mərhələ başlayır.

## Azərbaycanda siyasi-diplomatik inqilab

Bu mərhələnin mahiyyətini, sözün əsl mənasında, bu həqiqət təşkil edir. Rəsmi Bakı olduqca maraqlı və faydalı şəkildə "3+3" formulunun həyata keçməsi üçün regional reallıqlarla regionlararası reallıqların bir-birinə dəstəyinə nail olmağa başlayıb. Mövcud prosesi həyata keçirmək mexanizmi isə başlıca olaraq konkret layihələrin (energetik, informasiya, kommunikasiya, loqistika, müdafiə, təhlükəsizlik və s.) reallaşması vasitəsi ilə baş verir. Bakı həmin layihələri həyata keçirməkdə böyük fəallıq göstərməklə, meydana gələn yeni əməkdaşlıq mühitinin təhlükəsizliyi məsələsini də geniş məkanda aktuallaşdırmış və onu iştirakçı dövlətlərin milli təhlükəsizliyi ilə birbaşa bağlamış olur.

Bu, ümumiyyətlə, bir regionun təhlükəsizlik və əməkdaşlıq formulunun (fəlsəfəsi və siyasi-nəzəri aspekti də daxil olmaqla) reallaşması prosesini elə şaxələndirmək və bu əsasda elə inteqrativ mühit yaratmaqdır ki, konkret müsbət nəticələr alınsın. Onun fəlsəfi-nəzəri və siyasi-praktiki kontekslərdə kompleks təhlilinə ciddi ehtiyac vardır. Çünki, özlüyündə bu yanaşma nəzəri olaraq yenidir və praktiki reallaşması təcrübəsini eksklüziv olaraq Azərbaycan-Türkiyə diplomatiyası yaradır. Bu, necə baş verir?

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki***

# İrəvanın növbəti anti-Rusiya addımı

*(əvvəli 1-ci səhifədə)*

Qəzet yazır ki, üstəlik, müxtəlif mənbələrin verdiyi məlumata görə, yeni bioloji laboratoriya Gümrüdə, Rusiya hərbi bazasının bilavasitə yaxınlığında yerləşəcək: "Yeri gəlmişkən, onu da qeyd edək ki, Ermənistanda fəaliyyət göstərən laboratoriyalardan daha biri Gümrüdə, məktəbdən bir qədər aralıda yerləşir. Biolaboratoriyaların necə adlandırılmasından asılı olmayaraq, onların patogenlərlə işlədiyini, yəni bioloji faktorlu laboratoriyalar olduğunu nəzərə alan mütəxəssislər müxtəlif patogenlərin yaradılması, modifikasiyası və ya yayılmasının mümkünlüyündən narahat olduqlarını bildirirlər".

Ermənistan mediası yazır ki, eyni narahatlıq təhlükəli xəstəliklərin yayılması ilə də bağlıdır: "Yeri gəlmişkən, bu fonda bir çox ekspertlər 2023-cü ildə Ermənistanda qızılcaya yoluxma hallarının laboratoriyada təsdiqlənmiş ümumi sayının 545-ə çatdığına diqqət çəkirlər.



2024-cü ildə isə 32 qızılcaya yoluxma halı təsdiqlənib, 16 nəfər xəstəxanaya yerləşdirilib. Üstəlik, səhiyyə sahəsi üzrə mütəxəssislər bu göstəricilərlə yanaşı, hətta mövsümi qrip və ya mədə-bağırsaq xəstəliklərini də insanların ağır keçirdiyindən narahat olduqlarını bildirirlər. Bu halların bioloji laboratoriyalara nə dərəcədə aid olduğunu söyləmək çətindir, lakin ekspertlər əhalinin məskunlaşdığı ərazilərdə müxtəlif eksperimentlərin aparılmasının mümkünlüyünü istisna etmirlər".

Erməni ekspertlər ölkədə yerləşən ABŞ biolaboratoriyalarının sayının artırılmasını Nikol Paşinyan iqtidarının Qərbpərəst mahiyyətindən irəli gəldiyini bildirirlər. Onlar bunu Ermənistanın müttəfiqi Rusiyaya, necə deyərlər, arxadan vurulan zərbə kimi qiymətləndirirlər. "Xalqın səsi" ictimai klubunun eksperti Arman Qukasyan bildirib ki, Ermənistanda 12 ABŞ biolaboratoriyasının mövcudluğu adi məsələ deyil. Onun sözlərinə görə, Rusiya hökumətinin nümayəndələri dəfələrlə bəyan ediblər ki, bu laboratoriyalar bioloji sferada dərin maraqlar güdür və amerikalıların əlində hərbi alətdir: "2010-cu ildə Ukrayna, Gürcüstan, Moldova, Qazaxıstan, Özbəkistan və Ermənistanda ABŞ-ın bioloji laboratoriyalarının açılmasına başlandı. Amerika tərəfi iddia edir ki, bu qurumların məqsədi kənd təsərrüfatı heyvanlarının sağlamlığını təmin etmək, təmir işlərini maliyyələşdirmək və hökumətin insan sağlamlığına mümkün təhlükələrə ictimai monitorinq aparmaq imkanlarını gücləndirən ən müasir laboratoriyalar yaratmaqdır. Lakin biolaboratoriyalar o qədər də sadə deyil. Onların ikili funksiya daşıdığı məlumdur. Birincisi, biolaboratoriyalar ABŞ Müdafiə Nazirliyi tərəfindən maliyyələşdirilir və fəaliyyətləri son dərəcə məxfi saxlanılır. Bu isə həmin müəssisələrin bioloji silah hazırladığına dair fikirlərin meydana çıxmasına səbəb olub. Onların maliyyələşməsi üçün ayrılan məbləğ milyonlarla ABŞ dollarına çatır. Amerikalılar Ukraynada bu məqsədlə 200 milyon dollar (Ukraynada bioloji laboratoriyaların sayı 30 vahiddən çoxdur), Gürcüstanda 150 milyon dollardan, Qazaxıstanda isə 130 milyon dollardan çox xərcləyiblər".

Qukasyan diqqəti kiçik Ermənistan üçün 12 biolaboratoriyanın çox olduğuna yönəldib. Deyib ki, ABŞ-ın maliyyə dəstəyi ilə yaradılmış biolaboratoriyalar respublikanın bütün vilayətlərində (haylar "marz" deyir–S.H.) fəaliyyət göstərir. Bunlardan üçü İrəvandadır: "Onların nə işlə məşğul olduğunu öyrənmək cəhdi "dəmir" arqumentlə qarşılaşır: "bunlar strateji əhəmiyyət kəsb edən qapalı obyektlərdir". Eyni zamanda, "qəribə təsadüf nəticəsində" həmin strateji əhəmiyyətli obyektlər yaşayış massivlərinin yaxınlığında yerləşir. Məsələn, Gümrüdə referens-laboratoriya məktəbin düz yanındadır. Biz bu qənaətə gəlmişik ki, Ermənistan ictimaiyyətindən diqqətlə gizlədilən laboratoriyalarda iş aparılır. Onlar əhalinin sıx məskunlaşdığı yerlərdə, eləcə də uşaq bağçalarının və uşaq meydançalarının yaxınlığında yerləşirlər ki, bu da belə obyektlərin yerləşdirilməsi qaydalarına tamamilə ziddir".

Qeyd edək ki, Rusiya tərəfi ABŞ-ın postsovet məkanında yerləşən biolaboratoriyalarından duyduğu narahatlığı dəfələrlə dilə gətirib. Ölkənin xarici işlər naziri Sergey Lavrov bir müddət öncə "RT Arabic"ə müsahibəsində demişdi ki, ABŞ tərəfindən maliyyələşdirilən biolaboratoriyalar Ermənistan, Qazaxıstan və Mərkəzi Asiya ölkələrində yerləşir, Moskva bu problemi qonşuları ilə həm ikitərəfli, həm də KTMT vasitəsilə müzakirə edir: "Demək olar ki, bütün KTMT ölkələri və digər MDB ölkələri ilə bioloji təhlükəsizlik üzrə əməkdaşlıq memorandumları ya imzalanıb, ya da imzalanmaq üzrədir. Memorandumlar həmin ölkələrlə bioloji proqramların necə inkişaf etdiyi barədə qarşılıqlı məlumat mübadiləsini nəzərdə tutur".

S.Lavrov qeyd etmişdi ki, şəffaflıq bu proqramların hərbi ölçüyə malik olmaması üçün vacibdir, çünki bu, Bioloji və toksin silahların qadağan olunması üzrə Konvensiya ilə qadağandır: "Bu memorandumlar qarşılıqlı səfərləri və laboratoriyaların fəaliyyəti ilə tanışlığı tələb edir. Bundan əlavə, yazılır ki, bioloji obyektlərdə üçüncü tərəfin hərbi nümayəndələri olmamalıdır".

Baş nazir Nikol Paşinyanın Rusiyaya 2022-ci ildə həyata keçirilən rəsmi səfəri zamanı isə bəndlərindən biri biotəhlükəsizliklə bağlı olan birgə bəyanat qəbul edilmişdi. Həmin bənddə qeyd olunmuşdu ki, Ermənistan və Rusiya öz ərazilərini Moskva və İrəvanın maraqlarına zidd olan bioloji təhlükəsizlik sahəsində fəaliyyətə görə üçüncü ölkələrə verməyəcək. İki ölkənin rəhbər şəxsləri Moskva və İrəvan arasında bioloji təhlükəsizliyin təmin edilməsi sahəsində əldə edilmiş razılaşmaların, o cümlədən 2021-ci il 6 may tarixli memorandum əsasında həyata keçirilməsinin vacibliyini vurğulamışdılar. Ancaq indi görünən odur ki, rəsmi İrəvan Rusiya ilə anlaşmaya baxmayaraq, ölkədə daha bir ABŞ biolaboratoriyasının yaradılmasına qərar verib.

Onu da bildirək ki, bu yaxınlarda Ermənistan milli təhlükəsizlik xidmətinin ehtiyatda olan zabitlər ittifaqı respublikada fəaliyyət göstərən bioloji laboratoriyaların fəaliyyətini yoxlamağa çağırıblar. Bəyanatda o da vurğulanıb ki, son illər Ermənistanda qızılca, Afrika donuz taunu və qarayara kimi xəstəliklərə daha tez-tez rast gəlinir. Ehtiyatda olan xüsusi xidmət orqanları əməkdaşları bunu da biolaboratoriyaların fəaliyyəti ilə əlaqələndiriblər.

***Səxavət HƏMİD***
***XQ***

**Ekspert rəyi**



***İlyas HÜSEYNOV, politoloq***

– Ermənistanda biolaboratoriyaların mövcudluğu, eyni zamanda, sayının həddən ziyadə olması hər zaman ekspertlərin müzakirəsinə səbəb olub. Xüsusilə, Rusiya tərəfi və rusiyalı ekspertlər məsələni diqqətdə saxlayıblar. Çünki Rusiya və Ermənistan hələ də hərbi-siyasi müttəfiqdir. Eyni zamanda, Ermənistan ərazisində 102-ci hərbi baza yerləşir. Həmin baza Cənub Hərbi Dairəsinin müvafiq bölməsidir. Xüsusi vurğulanmalı məqam bundan ibarətdir ki, yeni açılacaq biolaboratoriya məhz Rusiya hərbi bazasının yerləşdiyi Gümrü şəhərində olacaq. Bunun özü də rusiyalı ekspertləri ciddi narahat edən məsələdir. Çünki həmin biolaboratoriyada məhz patogenlərlə bağlı araşdırmalar aparılacaq. Eyni zamanda, Hayastanda son dövrlərdə qızılca xəstəliyinin yayılması həm də biolaboratoriyalarla bağlı müəyyən şübhələr formalaşdırır. İstisna olunmur ki, xəstəliyin yayılmasında biolaboratoriyaların rolu böyükdür. Ermənistanın bizim qonşuluğumuzda yerləşməsi, region və dünya üçün qızılca təhdidinin yaranması fonunda bu cür biolaboratoriyaların hansı məqsədə xidmət etdiyi aydın şəkildə region ölkələrinə təqdim olunmalıdır. Çünki biolaboratoriyaların sayı getdikcə daha da artmaqdadır.

# AŞPA söndürülmüş separatizm ocağını niyə körükləyir?



*(əvvəli 1-ci səhifədə)*

Halbuki, AŞPA uzun illər ərzində Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərin işğalı faktına qarşı heç bir tədbir görməyib, yalnız ara-sıra heç bir hüquqi çəkisi olmayan bəyanatlar və qərarlar verməklə kifayətlənib. Uzaq olmayan tarixdə, 2014-cü ildən başlayaraq postsovet respublikalarında yaranan anoloji situasiyada bu qurumun hansı addımlar atdığını, eyni təşkilata üzv olan iki ölkədən birinin digərinin ərazisini işğal etməsi faktına görə, ən azından, işğalçının səs hüququnun əlindən alına biləcəyinin şahidi isə təkcə azərbaycanlılar deyildi.

Bəli, faktlar tərs şeydir. Bu kontekstdən Avropa Şurası Parlament Assambleyasının deputatları çərşənbə günü keçirdiyi müzakirədə Azərbaycanın qurumdakı nümayəndə heyətinin etimadnaməsini təsdiq etməməsini üzvü olduğumuz Qərbi Azərbaycan İcması hiddətlə qarşıladı. Onu xatırlatmaq istərdik ki, AŞPA-nın yürütdüyü, nümayişkaranə şəkildə həyata keçirdiyi, məhz bu platformada nümayiş etdirilən "xristian həmrəyliyi" nədənsə bu yerlərin aborigenləri olmuş albanlara münasibətdə hiss olunmur. Buna görədir ki, albanların maddi və mənəvi nailiyyətlərinin daşıyıcısı olan bugünkü azərbaycanlılar üçün onlar "xristian həmrəyliyi" məsələsində də səmimi görünmürlər.

Bunun üçündür ki, qətnamədə qeyd edilən "rəsmi Bakı ölkədə plüralist demokratiya və qanunun aliliyi, eləcə də fundamental insan hüquq və azadlıqlarına hörmətlə bağlı öhdəlik götürsə də, bu müddət ərzində bu tələbləri həyata keçirməyib" ifadələri nə qədər gurultulu səslənsə də, onların atdığı addımların fonunda saxta görünür.

Məhz sadalanan məqamlara görədir ki, qətnamədə əks olunan "prosedur qaydalar yerinə yetirildikdən sonra Azərbaycanın nümayəndə heyətinin öz fəaliyyətini davam etdirə biləcəyi" haqlı olaraq AŞPA-dakı nümayəndələrimiz tərəfindən haqlı etirazla qarşılanıb.

Qətnamənin qəbul edilməsindən bir neçə saat əvvəl Azərbaycan nümayəndə heyətinin Avropa Şurası Parlament Assambleyası ilə əməkdaşlığı və təşkilatda iştirakını "qeyri-müəyyən müddətə dayandırmaq" qərarına gəlməsi buna görədir ki, xalqımız tərəfindən zəruri addım kimi qiymətləndirirlir.

AŞPA-da atılan bu addım qurumun bəzi üzv dövlətləri hədəfə almaq üçün platforma kimi istifadə olunduğunu, qərəzli qrupların təşkilatın əsas prinsiplərindən öz dar maraqlarının təmini məqsədilə sui-istifadə etdiyini, orada siyasi korrupsiya, ayrı-seçkilik, etnik və dini nifrət, ikili standartlar, təkəbbürlülük, şovinizm hökm sürən praktikanın mahiyyətini ortaya qoydu.

Sadalaya bildiyimiz faktlar bir daha onun əyani nümunəsidir ki, dünyada minillərdir davam edən Xeyir-Şər qarşıdurması davam edir.

Təmsil olunduğum Qərbi Azərbaycan İcması Qadınlar Şurası bu qarşıdurmanın ildən-ilə körükləndiyini görür və bunu əzabkeş, son 300 ildə yaşadığı regionun amansız imperiya maraqlarının girovuna çevrilmiş Azərbaycan xalqının milli iradəsinə təhdid kimi qiymətləndirir və qətiyyətlə pisləyirik!

***Mahirə HÜSEYNOVA,***
***ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, professor***

# QHT-lərimiz Amuldağ qızıl yatağında monitorinq aparmağa hazırdır

**"Environmental Protection First" Milli Koalisiyası Amuldağ qızıl yatağında monitorinq aparmağa hazır olmasına dair bəyanat yayıb.**

Sənəddə deyilir ki, bu qurum Ermənistan vətəndaş cəmiyyəti təşkilatlarının Amuldağ qızıl yatağında ətraf mühitə ziyan vuran dağ-mədən sənayesi işlərinin dayandırılmasına dair etiraz bəyanatını dəstəkləyir: "Biz Ermənistandan olan həmkarlarımıza səsimizə səs verdikləri üçün təşəkkür edirik. Bu həmrəyliyin nəticəsidir ki, bu yaxınlarda Arazdəyəndə də başlanılması planlaşdırılan işlər dayandırıldı. Ermənistanda 100-dən çox vətəndaş cəmiyyəti təşkilatı və eko-fəalın qeyd etdiyi kimi, "Amulsar qızıl yatağı" layihəsi biomüxtəlifliyə və su ehtiyatlarına təhlükə törədir. Ermənistan hökuməti və "Lydian Armenia" şirkəti yatağın ətraf mühitə təsirinin qiymətləndirilməsinin nəticələrini nəzərə almayıb".

Bəyanatda daha sonra qeyd edilir ki, beynəlxalq qurumlar tərəfindən də fəaliyyətinə dəfələrlə etiraz edilmiş, əleyhinə qərarlar qəbul edilmiş Amuldağ qızıl yatağının istismarı nəticəsində formalaşan ağır metal tərkibli mədən tullantıları Bərgüşad çayına axıdılaraq Həkəri çayı vasitəsilə Araz çayını çirkləndirir: "Amuldağ qızıl yatağının bu cür istismarı Qafqaz dağları ilə əhatə olunmuş region və onun əhalisi üçün ciddi təhdiddir. Amuldağ yatağı təbii mineral su yatağı olan İstisu şəhərindən 13 kilometr məsafədə yerləşir, yatağın istismarı İstisu mineral bulaqlarına məhvedici zərər vurur".

***XQ***

# Azərbaycan–Türkiyə energetika əməkdaşlığı



**İqtisadiyyat naziri Mikayıl Cabbarov və SOCAR-ın prezidenti Rövşən Nəcəf ölkəmizdə səfərdə olan Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarla görüşüblər.**

Görüşdə iqtisadiyyat naziri ölkələrimiz arasında səmərəli enerji tərəfdaşlığını, birgə reallaşdırılan layihələrin regional inkişafa, stabilliyə və təhlükəsizliyə, Azərbaycan və Türkiyənin strateji maraqlarının təmin olunmasına xidmət etdiyini vurğulayıb. Bu xüsusda SOCAR-ın Türkiyədəki çoxşaxəli fəaliyyəti məmnunluqla qeyd olunub.

Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar enerji tərəfdaşlığının yeni qlobal trendlərə uyğun şəkildə inkişaf etdirilməsi barədə fikirlərini bölüşüb. Qeyd olunub ki, bu il Azərbaycanda təşkil olunacaq COP29 tədbiri də alternativ enerji və digər sahələrdə müzakirələrin aparılmasına və əməkdaşlıq üçün yeni imkanların açılmasına təkan verəcək.

***XQ***

# MN zabitinin ölümü ilə bağlı cinayət işi açılıb

**Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin hərbi qulluqçusu Abdullayev Amil Hümbət oğlunun ölüm faktı barədə Füzuli hərbi prokurorluğuna məlumat daxil olub.**



Bu barədə Hərbi Prokurorluğun mətbuat xidmətindən bildirilib.

Qeyd edilib ki, fakt üzrə Füzuli Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə, yəni digər şəxsi qəsdən həyatdan məhrum etmə) maddəsi ilə cinayət işi başlanılıb. Füzuli Hərbi Prokurorluğunun və Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Kriminalistika və İnformasiya Texnologiyaları idarəsinin əməkdaşları tərəfindən hadisə yerinə və meyitə baxış keçirilib. İş üçün əhəmiyyət kəsb edən predmetlər maddi sübut kimi götürülüb, şahidlər dindirilib, müvafiq ekspertizalar təyin edilib və digər zəruri istintaq hərəkətləri həyata keçirilib.

İlkin istintaqla ordumuzun zabiti A.Abdullayevin digər zabit Abdullayev Nizami Eynulla oğlu tərəfindən aralarında yaranmış mübahisə zəminində qəsdən öldürülməsinə əsaslı şübhələr müəyyən olunduğundan o, şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib.

İstintaq davam edir.

***XQ***

# GÜCLÜ LİDER – GÜCLÜ DÖVLƏT!

## Əsrə bərabər 20 il

Prezident İlham Əliyev ölkəyə rəhbərliyinin 20 ili ərzində fəaliyyətində "güclü iqtisadiyyat–güclü dövlət" prinsipinə əsaslanıb. Bunun üçün, ölkə rəhbəri, ilk növbədə, iqtisadi strategiyanın imkanlarından maksimum yararlanıb. Hələ 2003-cü ildə Azərbaycan Prezidentinin səlahiyyətlərinin icrasını həyata keçirdiyi qısa müddətdə cənab İlham Əliyev respublikamızın inkişaf prioritetlərini müəyyənləşdirən "Azərbaycan Respublikasında sosial–iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərman imzalayıb, xalqın böyük əksəriyyətinin etimadı ilə dövlət başçısı seçiləndən sonra isə onun təşəbbüsü ilə hazırlanmış davamlı və tarazlı inkişafın gerçəkləşməsinə yönələn "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nı (2004-2008-ci illər) təsdiqləyib.

Dövlət başçısı neft gəlirlərinin artdığı bir vaxtda makroiqtisadi sabitlik üçün müəyyən təhlükələrin, o cümlədən inflyasiya potensialının yarana biləcəyini nəzərə alaraq, "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" 2005-ci il 31 may tarixli Fərman imzalayıb. Milli iqtisadiyyatımızın neft bumu mərhələsinə hazırlığını reallaşdıran bu sənəddə dövlət büdcəsi xərclərinə nəzarətin gücləndirilməsi, neft ixracından əldə ediləcək vəsaitlərin səmərəli idarəsi və istifadəsi ilə bağlı məsələlər öz əksini tapıb.

Sonrakı mərhələlərdə isə dünyada cərəyan edən proseslərin yaratdığı yeni çağırışlara uyğunlaşmaq və mövcud qlobal iqtisadi böhranın ölkəmizə təsirini minimuma endirmək üçün iqtisadi islahatların strateji hədəflərinə uyğun, sistem xarakterli tədbirlər həyata keçirilib. Beləliklə, sosial-iqtisadi inkişafın cari, orta və uzunmüddətli dövrləri üçün keyfiyyətcə yeni iqtisadi inkişaf modeli formalaşdırılıb. Bu isə makroiqtisadi sabitliyin qorunub saxlanılmasına, qeyri-neft sahələrinin, bütövlükdə, regionların tarazlı inkişafının sürətlənməsinə, əlverişli biznes və investisiya mühitinin formalaşmasına, əhalinin sosial rifahının davamlı olaraq yaxşılaşmasına öz müsbət təsirini göstərib.




### UĞURLU NEFT STRATEGİYASI

Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən 1994-cü ildə qoyulmuş neft strategiyası təkcə hasilatın və ixracın rekord artımı ilə deyil, həm də tarixi əhəmiyyətli hadisələrlə yadda qalmaqla, son 20 il ərzində hərtərəfli tərəqqinin əsas təminatçısına çevrilib.




Azərbaycanın neft hasilatının böyük hissəsi "Azəri-Çıraq- Günəşli" (AÇG) blokunun payına düşüb. Blokun işə salınması ilə ölkəmizin xalis mənfəəti 2001-ci ildən bəri 171 milyard dollar təşkil edib.

Neft strategiyası son 20 ildə bir sıra tarixi hadisələrlə tarixə yazılıb:

**– 2005-ci il mayın 25-də Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin açılış mərasimi keçirilib, 2006-cı ildə isə Azərbaycan neftinin Türkiyənin Ceyhan limanından nəqlinə başlanılıb;**

**– 2017-ci il sentyabrın 14-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsinin birgə işlənilməsi və Hasilatın Pay Bölgüsü haqqında yeni "Əsrin müqaviləsi" imzalanıb. Bu müqaviləyə əsasən, SOCAR-ın payı 11 faizdən 25 faizə yüksəlib, mənfəət neftinin 75 faizi isə Azərbaycana qalıb;**

**– 2019-cu ildə AÇG üzrə əlavə hasilat platformasının tikintisi barədə razılıq əldə edilib;**

**– 2020-ci ildə neft ehtiyatı 60 milyon tondan çox qiymətləndirilən "Qarabağ" yatağı müstəqilliyimiz dövründə kəşf edilmiş ilk neft yatağı kimi tarixə düşüb.**

**– 2021-ci ildə Azərbaycan ilə Türkmənistan arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsinə dair qarşılıqlı Anlaşma Memorandumu imzalanıb.**

**– 2016-cı ildə Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) ilə əməkdaşlığa başlayan Azərbaycan həmin il dekabrın 10-dan indiyədək OPEC+ birliyinin üzvüdür.**

Qaz hasilatına gəldikdə isə qeyd edək ki, 2013-cü il dekabrın 17-də "Şahdəniz-2" layihəsi üzrə yekun investisiya qərarının imzalanması mərasimi keçirilib. Bu günədək yataqdan, ümumilikdə, 200 milyard kubmetrdən çox qaz hasil olunub. Azərbaycanda "Şahdəniz"dən sonra istifadəyə verilən ikinci böyük qaz yatağı isə "Abşeron" olub: onun ehtiyatları 350-360 milyard kubmetr qaz və 100 milyon ton kondensat həcmində qiymətləndirilib.

Respublikamızın qaz balansını daha iki perspektivli yataq – 200 milyard kubmetr ehtiyatı olan "Ümid" yatağı (artıq işlənilir) və 400 milyard kubmetr qaz ehtiyatı olan "Babək" yatağı tamamlayır. Həmçinin "Şəfəq- Asiman" qaz yatağında və "AÇG Gələcək qaz" layihəsi üzrə işlər aparılır.

Azərbaycan dəyəri 33 milyard dollar, uzunluğu isə 3500 kilometr olan strateji əhəmiyyətə malik nəhəng Cənub Qaz Dəhlizi layihəsinin təşəbbüskarı və səhmdarı kimi çıxış edib. 2014-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasının iyirminci ildönümü günündə Səngəçalda bu möhtəşəm layihənin təməlqoyma mərasimi keçirilib.




Bu təşəbbüsə ilk olaraq Türkiyə və Gürcüstan, ikinci mərhələdə isə İtaliya, Yunanıstan, Bolqarıstan və Albaniya qoşulub. Sonra isə yeni və potensial tərəfdaşların siyahısına Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro da daxil olub

2007-ci ildə Bakı-Tbilisi-Ərzurum (Cənubi Qafqaz Boru Kəməri) qaz kəməri istifadəyə verilib, "Şahdəniz" yatağının işlənməsinin birinci mərhələsi çərçivəsində hasil olunan qazın isə Gürcüstan, Türkiyə və Yunanıstana ixracına başlanıb.

2012-ci ildə TANAP (Trans-Anadolu Qaz Kəməri) layihəsi üzrə saziş imzalanıb. Bundan bir il sonra "Şahdəniz" konsorsiumu TANAP qaz kəməri ilə nəql olunan Azərbaycan qazının Avropaya çatdırılması məqsədilə Türkiyənin cənub sərhədini İtaliya ilə birləşdirən TAP (Trans-Adriatik qaz kəməri) layihəsini seçib və boru kəmərinin tikintisi 2020-ci ildə yekunlaşıb.Həmin ildən də TAP boru kəməri ilə təbii qazın kommersiya məqsədilə nəqlinə başlanılıb və indiyədək Avropa ölkələrinə ümumilikdə 31 milyard kubmetrdən çox qaz nəql edilib.

### "YAŞIL GƏLƏCƏY"Ə KEÇİD

Dövlət başçısının müəyyən etdiyi yola uyğun olaraq, ölkənin enerji potensialı durmadan yüksəldilir. Azərbaycanda ənənəvi energetika sahəsində beynəlxalq əhəmiyyət daşıyan iri layihələrin reallaşdırılması üzrə uğurlu praktika "Yaşıl elektrik enerjisi" istehsalı sektorunda inamla davam etdirilir, onun gələcəkdə Avropaya ixracı nəzərdə tutulur. Bərpaolunan enerji mənbələrinin texniki potensialı ölkəmizdə quruda 135 qiqavat, Xəzər dənizinin Azərbaycanın sektorunda külək enerjisinin potensialı isə 157 qiqavat qiymətləndirilir.



Bərpaolunan enerji mənbələrinin quruda iqtisadi potensialı 27 qiqavatdır, bunun 23 qiqavatını günəş enerjisi, 1 qiqavata yaxınını isə bioenerji və dağ çaylarının enerjisi təşkil edir. Gücü 240 meqavat olan külək enerjisi və gücü 230 meqavat olan günəş enerjisi sahələrində "ACWA Power" (Səudiyyə Ərəbistanı) və "Masdar" (BƏƏ) şirkətlərinin həyata keçirdikləri pilot layihələrlə Azərbaycanda 2020-ci ildə əsası qoyulan "yaşıl enerji"nin inkişafı qısa müddətdə geniş vüsət alıb. Bunlarla yanaşı, BP, "Fortescue Future Industries", "Chine Gezhouba Group Overseas Investment", "Total Energies", "Nobel Energy", "A-Z Czech Engineering" şirkətləri ilə ümumi gücü 28 qiqavat olan layihələrin reallaşdırılması üzrə əməkdaşlığa dair sənədlər imzalanıb.

Gücü 230 meqavat olan "Qarabağ" Elektrik Stansiyası istifadəyə verilib ki, bu da 262 milyon dollar məbləğində xarici investisiyalar hesabına ölkəmizdə inşa edilən birinci stansiyadır. Bu stansiya sayəsində Azərbaycanın enerji sisteminə əlavə 500 milyon kilovat-saat "yaşıl enerji" daxil olacaq. O cümlədən "Masdar" ilə sazişlər çərçivəsində bərpaolunan enerji ehtiyatlarından 10 qiqavat gücündə əlavə enerjinin dövriyyəyə daxil edilməsi planlaşdırılır.

"ACWA Power" ilə enerjinin saxlanılmasının akkumulyator sistemi və 200 meqavat gücündə külək elektrik stansiyaları layihələri (BESS) üçün Yol Xəritəsi imzalanıb. Naxçıvanda "Nobel Energy", "Total Energies", "A-Z Czech Engineering" şirkətləri tərəfindən ümumi gücü 1150 meqavat olan günəş elektrik stansiyalarının yaradılması nəzərdə tutulub.

### COP29 KONFRANSI–QLOBAL HƏRƏKATIN ÖNÜNDƏ

2024-cü ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsinə dair yekdil qərar Azərbaycanın iqlim problemləri ilə qlobal mübarizədə fəal iştirakına beynəlxalq ictimaiyyət tərəfindən verilən böyük qiymətin təzahürünə çevrilib. Prezident İlham Əliyev bu qərarı şərh edərkən deyib: "Yaşıl enerji növlərinin yaradılması və onların dünya bazarlarına nəqli hazırda bizim energetika siyasətimizin prioritetidir".

Beləliklə, Azərbaycan Dayanıqlı İnkişaf Məqsədlərinin dəstəklənməsinə, müasir dövrün ən aktual problemlərinin həllinə mühüm töhfə verəcək, dünya ictimaiyyətinin diqqətini regional ekoloji problemlərə cəlb edəcək.




COP29 Konfransının "Yaşıl dünya naminə həmrəylik ili"ndə keçirilməsi qərara alınıb. Xatırladaq ki, iqlim dəyişiklikləri ilə qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə Prezident İlham Əliyevin Sərəncamına əsasən, 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.

### SOSİAL DÖVLƏT – VƏTƏNDAŞ RİFAHI

Ulu öndər Heydər Əliyevin müəllifi olduğu uğurlu sosial siyasətin Prezident İlham Əliyev tərəfindən ötən 20 ildə sosial sahəyə xüsusi qayğı ilə davam və inkişaf etdirilməsi nəticəsində ölkəmizdə bütün sahələrdə davamlı tərəqqi prosesləri sosial nailiyyətlərlə tamamlanıb və əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımların atılması təmin olunub.

Bu dövrdə 3600 yeni məktəb, yəni ölkənin bütün məktəb fondunun (4500-dən çox məktəb) 80 faizdən çoxu inşa edilib və təmir olunub. Təkcə son üç ildə ölkədə 275 yeni məktəb binası tikilib, qəzalı məktəb binalarının sayı isə 30 faiz azalaraq 654-ə düşüb.




Ötən 20 ildə dövlət büdcəsinin illik sosial müdafiə və sosial təminat xərclərində 20 dəfədən çox artım baş verib. Minimum əməkhaqqı 38 dəfə artıraraq 345 manata, orta aylıq əməkhaqqı 12 dəfə artaraq 925,3 manata çatıb. Sosial müdafiə sisteminin mühüm komponenti olan pensiya təminatı yoxsulluğun azaldılmasında əhəmiyyətli rol oynayıb.

Bununla yanaşı, dövlət başçısı tərəfindən hər il müvafiq sərəncamlar imzalanmaqla minimum pensiyaların mütəmadi artırılması, hər ilin əvvəlində pensiyaların və fərdi hesablardakı pensiya kapitallarının indeksləşdirilərək artırılması təmin olunub. Ümumilikdə ötən 20 ildə minimum pensiya 14 dəfə artaraq 280 manata, orta aylıq pensiya 18 dəfə artaraq 435 manata, yaşa görə orta aylıq pensiya 19 dəfə artaraq 466 manata, əlilliyə görə orta aylıq pensiya 14 dəfə artaraq 366 manata, ailə başçısını itirməyə görə orta aylıq pensiya isə 19 dəfə artaraq 408 manata çatıb.

### KƏNDİN HƏRTƏRƏFLİ YÜKSƏLİŞİ




BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) rəhbərliyinin qərarına əsasən, Azərbaycan yoxsulluqla mübarizədə ən yüksək göstəricilərə nail olan dövlətlərdən biri kimi tanınıb. Azərbaycana "Minilliyin inkişaf hədəfləri"nə vaxtından əvvəl nail olmuş – 2015-ci ilədək yoxsulların sayını ikiqat azaltmış, həmçinin BMT- nin Ümumdünya Ərzaq Sammitinin daha sərt tövsiyələrinə uyğun olaraq 2015-ci ilədək yoxsulların sayının iki dəfə azaldılması məqsədinə çatmaq üçün aqrar kompleksin dayanıqlı inkişafını təmin edən ölkə kimi FAO- nun diplomu təqdim edilib. Beləliklə, Azərbaycan hər iki hədəfə nail olan ölkələrin qısa siyahısına inamla daxil olub.

Respublikamızın aqrar sektorunun modernləşdirilməsi nəticəsində ərzaq idxalının əvəzlənməsi (taxıl məhsullarından başqa) sahəsində 80 faiz irəliləyiş əldə olunub, FAO bu göstəriciyə görə Azərbaycanı yüksək rifaha malik ölkələr siyahısına daxil edib. Son illər Azərbaycanda aparılan aqrar islahatlar kənd təsərrüfatının rəqəmsal transformasiyasına, qabaqcıl aqrotexnologiyaların, o cümlədən "yaşıl metodikalar"ın və becərilən torpağın hər hektarından məhsuldarlığı əhəmiyyətli dərəcədə artırmağa imkan verən qənaətli suvarma sistemlərinin tətbiqinə yönəldilib.

Kənd Təsərrüfatı Nazirliyinin həyata keçirdiyi ən böyük layihələrindən biri "Elektron kənd təsərrüfatı" (EKTIS) avtomatlaşdırılmış informasiya sisteminin yaradılmasıdır. Bu çərçivədə fermerlərə becərilən məhsulların həcmi və strukturu, məhsul proqnozları, cari tələbat və təklif haqqında ətraflı məlumatlar verilir, onlara hazırkı mövsümdə ən perspektivli və sərfəli məhsulları seçməkdə kömək göstərilir. EKTIS 600 minə yaxın azərbaycanlı fermerin subsidiya alması sahəsində qayda yaradılması üzrə misilsiz rol oynayıb, bu prosesdə, o cümlədən gübrələrin və yanacağın tədarükündə nəzarəti gücləndirib və şəffaflığı təmin edib.

**Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı**




# Prezidentliyə namizəd Zahid Orucun Seçki Platforması

### ➔ Xarici siyasət – IV Respublika: Yüksələn regional güc–Azərbaycan!

Şübhəsiz ki, qalib adımız, sanbalımız bizə təkcə dost deyil, həm də düşmən ölkələr qazandırıb.

Azərbaycan regionda və dünyada tamamilə yeni reallıq yaradıb. **Planetar güc potensialı qlobal piramidanın zirvəsindən regionlara doğru y**önəlir. Bu reallıq yeni qüvvələr balansını, daha geniş anlamlı regional miqyasda **yüksələn yeni regional gücü** dünyaya tanıdacaq. Şübhəsiz ki, bu **Azərbaycan olacaq**!

Tam suverenliyini bərpa edən regionun lider dövləti Azərbaycan bölgəyə kənar güclərin müdaxilə və təzyiqinin əleyhinədir**. Bölgəyə sülhü bölgə ölkələri gətirə bilər.**

Müşahidə missiyaları, sülhməramlı kontingent adı altında istənilən statuslu kənar qüvvəni gətirmək cəhdləri əbəsdir və Azərbaycan buna heç zaman imkan verməyəcək.

**Azərbaycan kimi ölkələrlə hesablaşmağın dərk edildiyi əsr gəlir**. Xalqımız buna çox yaxında əmin oldu. Beynəlxalq sistemdə güc və təzyiq siyasətinə yox deyirik. **Qlobal güc sayılan ölkələrin uzun illər apardığı siyasət artıq bumeranqa çevrilib, özlərini hədəfə alıb.**

Bəşəriyyət sürətli dəyişikliklərin çətin mərhələsini yaşayır, yeni təhlükələr yaranır. Azərbaycan bütün dünyanın üzləşdiyi problem və çağırışları məsuliyyətli, peşəkar şəkildə dərk və dəf edir. Bizim vəzifəmiz Azərbaycanın təhlükəsizliyini və suverenliyini etibarlı şəkildə qorumaqdır.

### ➔ IV Respublika: 4-cü sənaye inqilabı dövrünün iqtisadiyyatı:

#### Zəka iqtisadiyyatıdır

Dövlətçiliyimizin yeni tarixi mərhələsində bütün sahələr: **iqtisadiyyat, elm və təhsil, mədəniyyət Süni İntellekt əsrinin, 4-cü sənaye inqilabının çağırışlarına** cavab verən rejimdə çalışmalıdır. 7 fevraldan sonra **yuxarıdan direktivlər gözləyən** passiv icraçı məmur sistemi yeni dövlət quruculuğunda yer ala bilməyəcək. Süni İntellekt əsrinin dövlət idarəçilik sistemi Beyin Mərkəzi kimi çalışmalı, **hər bir şəraitdə problemlərin üzərinə beyin hücumunu təşkil edəcək aidiyyətli strukturlar təsis edilməli, tədqiqat və data əsaslı, ictimai rəy əsaslı idarəetmə bütün səviyyələrdə bərqərar olmalıdır.**

Artıq "postrəqəmsal" eranın başlanması bəyan edilib. Elm və təhsil sistemində aşağıdan yuxarıya qədər zəka iqtisadiyyatının çağırış və tələblərinə cavab, ölkənin yüksək insan kapitalına əsaslanan iqtisadi gücü – milli gücün əsas parametridir. Peşə seçimləri, əmək qabiliyyətli əhali arasında peşə bacarıqlarının uyğunsuzluğu kimi neqativ halların trendlərə çevrilmısinin qarşısını almalıyıq. Bu istiqamətdə atılacaq **ilk addımlar "Elm və texnologiya siyasəti haqqında", "Süni İntellekt haqqında" və s. qanunların** qəbul edilməsidir. Ölkəmizin potensialı **"Süni İntellekt Nazirliyinin" yaradıldığı ölkələrdən (BƏƏ) geridə deyil. Onun reallaşdırılması günün tələbidir.**

### ➔ "Böyük Qayıdış" Strategiyasının "Böyük Dönüş!"lə tamamlanması

#### Böyük Dönüş: Qarabağa, torpağa, bölgələrə, köklərimizə, dəyərlərimizə

Azad edilmiş ərazilərə Böyük Qayıdış dövlət proqramı qəbul edilib, həyata keçirilir. Qayıdış konseptinə baxışımız fərqlidir. Daha təfərrüatlı təqdim edəcəyimiz yanaşmanın yığcam izahı bundan ibarətdir ki, Qayıdış **Azərbaycanın məkan müstəvisində inkişafı üçün geniş miqyaslı proqramı əhatə edən nəhəng sosial-demoqrafik milli layihəyə** transformasiya edilməlidir. Bu, **"Böyük Dönüş"** layihəsidir.

Sözügedən layihə çərçivəsində regionlarda məşğulluq və s. problemlər səbəbindən şəhərə miqrasiya edən kənd əhalisi bağlı olduğu doğma kəndlərinə dönməlidir.

Dünyanın **urbanizasiya deyil – aqrosivilizasiya formatında təşkilatlanması qlobal trend hesab edilə bilər.** Böyük Dönüşün müxtəlif istiqamətlərdə reallaşdırılması həm məşğulluq, həm də ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından strateji istiqamətdir.

### ➔ Aqrar sektorun inkişafı, yaşıllaşan kəndlər "Böyük Dönüş" layihəsinin müsbət nəticəsi olacaq

**XXI əsrin aqrar sektoru tamamilə fərqli, rəqəmsallaşmış sektordur.** Müasir dövrün kənd təsərrüfatı milli iqtisadiyyatların yeni mühərrikinə çevrilib. Yeni mərhələdə kəndlərimiz inkişafı ilə yadda qalacaq. Biz kənd yerlərində kütləvi məşğulluğa şərait yaradacaq, kəndlilərin sahibkarlıq təşəbbüslərini dəstəkləyəcəyik.

Sakinlərin torpaq sahəsinə çıxışları mümkün olacaq. Bunun üçün iri mülkiyyətçilərin istifadəsiz qalan torpaq sahələrinin dövlət mülkiyyətinə qaytarılması gərəkdir.

Aqrar sektorda inhisardan çıxarma şəffaf hüquqi prosedurlar, vergi güzəştləri və müasir texnologiyaların tətbiqi ilə müşayiət olunmalıdır. Effektiv suya qənaət texnologiyalarını tətbiq etmək, meliorasiya və suvarma sistemini bərpa etmək lazımdır

Dövlət kənd təsərrüfatı kooperativlərinin təşkili üçün genişmiqyaslı layihələr həyata keçirəcək. "**Kənddən-şəhərə", "tarladan-mağaza rəflərinə" kəndli kooperativlərinə birbaşa məhsul tədarükçüsü olmasına şərait yaradılacaq. Effektiv olmayan vasitəçilər aradan qaldırılacaq.**

Azərbaycan kəndinin inkişafında dönüş yaratmaq üçün sərhəd kəndlərində məskunlaşdırmanın möhkəmləndirilməsinə dair ayrıca-milli təhlükəsizliyin mühüm demorqafik, iqtisadi və sosial əsası kimi yeni inkişaf konsepsiyası hazırlanacaq.

**Kiçik və orta biznes**, **sahibkarlıq subyektlərinin inkişafı** məşğulluğun təmin edilməsində aparıcı mövqeyə malikdir. Dünya Bankının məlumatlarına əsasən, inkişaf etmiş ölkələrdə **KOS-un ÜDM və məşğulluqdakı payı müvafiq olaraq 50 və 60 %-dən yuxarıdır**. Belə ki, dünyanın inkişaf etməkdə olan ölkələri də iqtisadi dayanıqlılığın gücləndirilməsi, rəqabətqabiliyyətliliyin artırılması və iqtisadi aktivliyinin təmin edilməsi üçün KOS-un inkişafı istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi, Azərbaycan iqtisadiyyatında payının qısa zamanda qabaqcıl ölkələrdəki faizə qədər yüksəlməsi ön şərtdir. Bu kəsimdən olan şəxslərə öz bizneslərini asan qurmağa imkan verən liberal şərtlər yaradılmalı, iş **görmək istəyən hər kəsə ölkəmiz -fürsətlər məkanı kimi** mühit formalaşdırmaq lazımdır.

### Dövlət idarəçiliyində struktur və inzibati islahatlar

Azərbaycanda mərkəzi və yerli icra strukturlarının fəaliyyəti regionlara aid edildikdə, onların arasında sıx koordinasiyanın olmaması, məmur problemi də əlavə olunmaqla vətəndaş məmnunluğuna maneələr yaradır, sosial narazılıqlara səbəb olur. Bu məsələnin həllinin bir yolu–mərkəzin səlahiyyətlərinin yerli idarəçilik qurumlarına ötürülməsi ola bilər. Vətəndaş narazılığına səbəb olan nə varsa, onun çevik həlli üçün səlahiyyətlər də yerli qurumlara verilməlidir.

**Məmurlar vəzifəyə təyin edilərkən "Azərbaycana xidmət edirəm" andı içməlidir. Vətəndaşın olduğu kimi, Vətənin də hər kəsdən gözləntisi var. Dövlətimizin, millətimizin uğuru, son nəticədə hərənin öz iş yerində xidmətindən, onun keyfiyyətindən asılıdır. Bu gün dünya Daxili siyasətdə, xarici siyasətdə, milli müdafiədə, təhsildə, elm və texnologiyada, səhiyyədə, və s. sahələrdə ölkələr misli görünməmiş çağırışlarla üzləşirlər. Buna görə ölkələr sədaqət və məsuliyyət, eləcə də peşəkar və enerjili insanlarımızdan asılıdır.**

### ➔ Mədəniyyət. Dəyərlər

Qarşıdakı mərhələdə **mühüm məsələlərdən biri də, kim olduğumuzla yanaşı, daha** çox, həm də, **kim olacağımızla bağlıdır**. Bizi birləşdirən yalnız keçdiyimiz Zəfər yolu deyil, həm də qarşıdakı hədəflərlə bağlı birgə, həmrəy olmağımızdır. Şanlı keçmiş də, quracağımız gələcək də xalqımızı birləşdirən dəyərlərdə ifadəsini tapır. Çoxəsrlik keçmişimizlə yanaşı, **müstəqillik, I və II Qarabağ müharibələrinin tarixinin yaddaşlara həkk edilməsi hər zaman prioritetlərimizdən biri olacaqdır.**

### ➔ Sosial proqramlar

Qalibiyyətlə müharibədən çıxan bir ölkədə sosial sahədə, **çoxsaylı amillərlə bağlı sistemli problemlərin olması təbiidir. Bəzi hallarda onların obyektiv və ya subyektiv amillərdən yığılması, həll edilməməsi vətəndaşlarımızda icra strukturlarına inamsızlıq yaradır.** Bu hallar dövlətimizin davamlı inkişafına mane olur. Çünki ölkəmizin əsas sərvəti insanlarımızdır. Hesab edirik ki, burada həm "dövlət vətəndaş üçün", həm də, "vətəndaş dövlət üçün" qarşılıqlı yanaşması vəhdət təşkil etməlidir.

Sosial ədalət, ədalətli sosial siyasətin aparılması, təhsilin, sağlamlığın və rifahın təmin edilməsi. **Bu məsələdə dövlət vətəndaşlar üçün birbaşa cavabdehdir.** Ölkənin sosial büdcəsi müstəqillik illərində davamlı olaraq artan xətt üzrə yüksəlib. Uşaq bağçalarının, məktəblərin, xəstəxanaların, mədəniyyət və idman obyektlərinin tikintisinə və müasirləşdirilməsinə, həmçinin ünvanlı yardıma milyonlarla manat vəsait xərclənir. Biz sosial müavinətlərin həcminin məqsədyönlü, nəticə yönümlü artırılmasına çalışacağıq. Əhalinin həssas qruplarını dəstəkləmək, həyat şəraitlərinin yaxşılaşdırılması üçün yeni mexanizmlər tətbiq ediləcək.

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı




# Böyük Azərbaycan Partiyasının Azərbaycan Respublikası Prezidentliyinə namizədi Elşad Musayevin Seçki Platforması

**Əziz seçicilər!**

**7 fevral 2024-cü il tarixində Azərbaycan Respublikasının vətəndaşları Prezident seç-kisində iştirak edəcək və öz konstitusion hüquqlarından istifadə edərək ölkənin gələ-cək rəhbərini müəyyənləşdirəcəklər.**

**Bu Seçki ilk dəfə Xalq-Ordu birliyi nəticəsində ərazi bütövlüyü və suverenliyi təmin olunmuş ölkəmizin bütün ərazisini əhatə edəcəkdir. Uşaqdan-böyüyə şanlı Vətən müharibəsi Zəfərində payı olan qalib vətəndaşlarımız bu Seçkidə yeni qalibiyyət dastanı yazacaqlar.**

**Azərbaycanın sərhədlərinin tamlığı, suverenliyi, dünya birliyində layiqli yerini tutması, ölkədə demokratiyanın daha da inkişaf etməsi və vətəndaşlarımızın layiqli həyat səviyyəsinin təmin olunması üçün siyasi proseslərdə təmsil olunan Böyük Azərbaycan Partiyası bu seçkilərdə mənim namizədliyimi irəli sürmüşdür.**

**Bu böyük məsuliyyət və vəzifəni dərk edərək Prezident seçkilərində iştirak edirəm. Namizədliyim üçün mənə dəstək göstərmiş minlərlə partiya üzvümüz və vətəndaşlarımızın etimadını doğrultmaq ən böyük amalımdır. Seçki Platforması ilə tanış olduqdan sonra bu seçkilərdə mənə etimad göstərəcəyinizə inanıram.**

**Sizləri seçkilərdə fəal iştirak etməyə dəvət edirəm.**

**Böyük və Güclü Azərbaycan Naminə!**

**Dövlətçilik və qanunçuluq**

•Dövlətin vətəndaşlar qarşısında vəzifə qoymaqla yanaşı, həm də vətəndaşın hüquqlarının layiqli təminatçısına çevrilməsi;

•Demokratik hüquqi bazanın təkmilləşdirilməsi, daha demokratik və qanuni prinsiplər əsasında idarəçiliyin həyata keçirilməsi;

•Dövlətin bütün vətəndaşlar qarşısında bərabər imkanlar yaratması və hər kəsin savadı, qabiliyyəti müqabilində cəmiyyətdə mövqe qazanmasına nail olunması;

•Qanunların icra mexanizmlərinin təkmilləşdirilməsi;

•Tutduğu vəzifədən asılı olmayaraq hamının qanun qarşısında bərabərliyinin ədalətli təmin olunması;

•Məhkəmələrdə və digər hüquq-mühafizə orqanlarında yalnız qanunlara əsaslanan qərarların verilməsinə nail olunması.

**Azərbaycanın milli təhlükəsizliyi və ordu quruculuğu**

•Ölkənin milli təhlükəsizliyinin bütün sferalarda layiqli təminatı;

•Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasının uğurla həyata keçirilməsi;

•Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsinin milli ideya kimi gündəmdə saxlanması;

•Qazax rayonuna aid 7 kəndin və Kərki kəndinin işğaldan azad olunması;

•Ermənistanın sülhə məcbur edilməsi, delimitasiya və demarkasiya proseslərinin həyata keçirilməsi;

•Zəngəzur dəhlizinin açılması, tarixi torpaqlarımızla, Qərbi Azərbaycandan deportasiya edilmiş soydaşlarımızın pozulmuş hüquqları ilə bağlı məsələlərin gündəmdə saxlanılaraq həll olunması;

•İşğaldan azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması;

•Böyük Qayıdışın təmin olunması;

•Azərbaycanda güclü ordu quruculuğunun davam etdirilməsi, müasir silahlı qüvvələrin formalaşdırılması, Azərbaycan Ordusunun dünyanın ən güclü orduları siyahısında mövqeyinin möhkəmləndirilməsi;

•Silahlı qüvvələrin maddi-texniki təminatının ən müasir silahlarla daha da gücləndirilməsi;

•Azərbaycanın silah-sursat istehsalının təkmilləşdirilməsi və genişləndirilməsi.

**Sosial-iqtisadi inkişaf**

•İşsizliyin aradan qaldırılması, yüksək əmək haqqı, pensiya, müavinətlər, uşaq pulu vermək üçün ölkənin daha güclü iqtisadi inkişafına nail olunması;

•Neft-qaz strategiyasının uğurla davam etdirilməsi;

•Qeyri-neft sektorunun inkişaf etdirilməsi, xırda və orta biznesin stimullaşdırılması;

•Alternativ enerji resurslarının inkişaf etdirilməsi, yaşıl enerji strategiyasının reallaşdırılması;

•İnvestisiyaların təşviqi, sahibkarlığın inkişaf etdirilməsi, əlverişli biznes mühitinin təmin edilməsi;

•Xüsusi mülkiyyətin toxunulmazlığına təminat verilməsi;

•Kənd təsərrüfatının inkişaf etdirilməsi üçün dövlətin maliyyə dəstəyinin təmin edilməsi, kənd təsərrüfatı infrastrukturunun yenidən yaradılması;

•Turizmin inkişaf etdirilməsi;

•Regionların sosial-iqtisadi inkişafına nail olmaq üçün infrastrukturun yenilənməsi, yeni xidmətlər və istehsal sahələrinin, yeni iş yerlərinin yaradılması, yerli səviyyədə büdcələrin formalaşdırılması;

•Yoxsulluğun aradan qaldırılması üçün dövlət siyasətinin dərinləşdirilməsi;

•Dövlətin sosial müdafiə və sosial təminat xərclərinin artırılması, əmək haqlarının və sosial ödənişlərin artım dinamikasına nail olunması;

•Şəhid ailələrinə, əlillərə, müharibə veteranlarına, aztəminatlı vətəndaşlara, uşaqlara, tələbələrə güclü dövlət dəstəyinin təmin edilməsi;

•Uşaqların daha yaxşı qidalanması, maddi və tibbi ehtiyaclarının təmin edilməsi, anaların sosial hüquqlarının genişləndirilməsi, çoxuşaqlı ailələrə dövlət dəstəyinin artırılmasına nail olunması.

**Təhsil, səhiyyə və mədəniyyət**

•Azərbaycanda müasir təhsil infrastrukturunun formalaşdırılması, təhsilin maddi-texniki bazasının gücləndirilməsi, müəllimlərin əmək haqqının artırılması;

•Dövlət büdcəsindən təhsilə ayrılan xərclərin kəskin artırılması;

•Gənclərin xaricdə təhsil almaları üçün dövlət proqramlarının genişləndirilməsi;

•Rəqəmsal transformasiya, süni intellekt, müasir texnologiyalar kimi dövrün çağırışlarına gəncliyin cəlb olunması;

•Müasir texnologiyaların tətbiq olunmasında gəncliyin rolunun artırılması və stimullaşdırılması;

•Vətəndaşların sağlamlığının qorunması, göstərilən tibbi xidmətlərin səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi;

•Əhalinin bütün tibbi xidmətlərə və dərmanlara əlverişli şərtlərlə çıxışının təmin edilməsi;

•Səhiyyə infrastrukturunun müasir tələblərə uyğun yenidən qurulması;

•Əhalinin ödənişsiz dispanserizasiyasının davamlı təşkil edilməsi;

•İcbari tibbi sığorta sisteminin inkişafı və əhatə dairəsinin, xidmətlər zərfinin genişləndirilməsi;

•Azərbaycan mədəni irsinin qorunması üçün yeni proqramların başladılması;

•Ölkəmizin mədəniyyət infrastrukturunun davamlı inkişaf etdirilməsi;

•Kino və teatr sənətinin inkişafı üçün dövlət proqramlarının hazırlanması və tətbiqi;

•İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan xalqına məxsus mədəni irsin bərpasının davam etdirilməsi və bu irsin dünyada tanıdılması.

**Gənclər və idman**

•Gənclərin cəmiyyətdə rolunun artırılması, milli ruhda tərbiyə alması, intellektual inkişafı, cəmiyyət həyatına inteqrasiyası, dövlət idarəçiliyinə cəlb olunması üçün dövlət dəstəyinin artırılması;

•Gənclərin məşğulluğu, biznes fəaliyyətinin təşkili, karyera quruculuğu üçün dövlətin diqqəti və dəstəyinin artırılması;

•Vətən müharibəsindəki şanlı Zəfərin əldə edilməsində Azərbaycan gənclərinin möhtəşəm rolu nəzərə alınmaqla vətənpərvərlik hisslərinin daha da gücləndirilməsi üçün xüsusi proqramlar həyata keçirilməsi;

•Gənclər arasında sağlam həyat tərzinin təşviqi, onların zərərli vərdişlərdən, kənar təsir və ideologiyalardan qorunması üçün proqramlar həyata keçirilməsi;

•Azərbaycan idmanına dövlət dəstəyinin daha da artırılması.

**Dövlət və ictimai münasibətlər**

•Ölkədə mövcud siyasi dialoqun daha da dərinləşdirilməsi;

•Ölkənin taleyi və milli maraqlarla bağlı məsələlərdə ölkədaxili siyasi qüvvələrlə məsləhətləşmələrin aparılması;

•Kənar qüvvələrin hakimiyyətlə müxalifət, siyasi qüvvələr arasındakı münasibətlərə müdaxilə etmə cəhdlərinin qarşısının alınması;

•Ölkəmizə qarşı aparılan qərəzli və çirkin kampaniyalara qarşı iqtidar və müxalifətin birgə fəaliyyətinin təmin edilməsi.

**Xarici siyasət**

•Azərbaycanın milli maraqlarına və beynəlxalq hüquqa əsaslanan müstəqil, prinsipial və təşəbbüskar xarici siyasət aparması;

•Vətən müharibəsindən sonra ölkəmizin xeyirinə yaranmış yeni reallığın beynəlxalq müstəvidə qəbul etdirilməsi;

•Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanımağa, eyni zamanda, sülh müqaviləsi bağlamağa məcbur edilməsi;

•Vətən müharibəsi dövründə və sonra Azərbaycan diplomatiyasının uğurlu fəaliyyətinin davam etdirilməsi;

•Vətən müharibəsindən sonra bəzi xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycana qarşı aparılan qərəzli və çirkin kampaniyanın qarşısının alınması üçün tədbirlər görülməsi;

•Azərbaycanın dünyanın aparıcı təşkilatlarında və tədbirlərində təmsil olunmasının, beynəlxalq təşkilatlara rəhbərlik etməsinin təmin olunması;

•Qardaş Türkiyə ilə strateji müttəfiqlik əlaqələrinin daha da dərinləşməsinin təmin olunması;

•Türk Dövlətləri Təşkilatının gücləndirilməsi üçün ölkəmizin səylərinin daha da artırılması;

•Vətən müharibəsi dövründə Azərbaycana dəstək verən ölkələrlə münasibətlərin daha da dərinləşdirilməsi;

•Azərbaycanın İslam həmrəyliyi prinsipinə və müsəlman ölkələrinin legitim maraqlarına dəstək verməsi;

•Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqa verdiyi dəstəyin davam etdirilməsi.

**Əziz seçici,**
**Böyük və Güclü Azərbaycan Naminə**
**ELŞAD MUSAYEVƏ**
**səs ver!**

**Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı**

# Böyük Quruluş Partiyasından Azərbaycan Respublikası Prezidentliyinə namizəd Fazil Mustafa

## Azərbaycan Respublikasının Prezidentliyinə namizəd Fazil Qəzənfər oğlu Mustafa

ÖMÜR YOLU

**1965-ci il oktyabrın 19-da Naxçıvan şəhərində anadan olmuşdur. 1982-ci ildə Naxçıvan şəhərində 10 saylı orta məktəbi bitirib. 1982–1984-cü illərdə 5 saylı Naxçıvan tikinti trestində fəhlə işləmişdir. 1984–1986-cı illərdə keçmiş Sovet Ordusunda əsgər kimi həqiqi hərbi xidmət keçmişdir.**

**1986-cı ildə daxil olduğu Bakı Dövlət Universitetinin Hüquq fakültəsini 1991-ci ildə bitirmişdir.**

**Milli Azadlıq hərəkatında fəal iştirak etmiş, "Çənlibel", "Yurd", "Şimali Azərbaycan Tələbə İttifaqı" kimi birliklərin rəhbərliyində olmuşdur. AXC Hüquq fakültəsindəki dayaq dəstəsinin sədri, eyni zamanda, SSRİ Tələbə-Hüquqşünaslar Assambleyasının İdarə heyətinin üzvü olmuşdur.**

**1991–1992-ci illərdə Azərbaycan Xalq Cəbhəsi sədrinin müşaviri, AXC Analitik Mərkəzinin rəhbəri vəzifələrində çalışmışdır.**

**1992–1993-cü illərdə Azərbaycan Respublikası Prezidenti Aparatının Dövlət-Hüquq şöbəsinin müdiri vəzifəsində işləmişdir.**

**1995–1998-ci illərdə Türkiyədə AXC sədrinin özəl təmsilçisi olmuşdur. 1998–2001-ci illərdə Azərbaycan Xalq Cəbhəsi Partiyası sədrinin müavini vəzifəsində çalışmışdır.**

**2001–2003-cü illərdə ikinci dəfə həqiqi hərbi xidmətə çağırılmış və döyüş bölgəsində baş leytenant rütbəsi ilə tağım komandiri vəzifəsində xidmət keçmişdir.**

**2003-cü ildə Böyük Quruluş Partiyasını təsis etmiş və ilk qurultayda həmin partiyanın başqanı seçilmişdir. 2006, 2009, 2012, 2016 və 2020-ci illərdə yenidən partiya başqanı seçilib.**

**2005-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasında "Azərbaycan türklərinin dini-fəlsəfi dünyagörüşü: fəlsəfi aspekt" mövzusunda dissertasiya müdafiə edərək fəlsəfə üzrə fəlsəfə doktoru alimlik dərəcəsini almışdır.**

**2008-ci ildən Azərbaycan Hüquqşünaslar Konfederasiyasının İdarə Heyətinin üzvüdür.**

**2020–2023-cü illərdə Azərbaycan Xüsusi Olimpiya Komitəsinin prezidenti olmuşdur.**

**Üçüncü, dördüncü və beşinci çağırışlarda 26 saylı Birinci Sabunçu seçki dairəsindən Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir.**

**Altıncı çağırış Azərbaycan Respublikasının Milli Məclisinə yenə də Birinci Sabunçu seçki dairəsindən deputat seçilmiş və hazırda Milli Məclisin Mədəniyyət Komitəsinin sədridir.**

**F.Mustafa, eyni zamanda, Milli Məclisin İnsan hüquqları Komitəsinin üzvüdür.**

**Avropa Şurasının Parlament Assambleyasında və TURK Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.**

**Azərbaycan Respublikasının Prezidenti yanında Əfv məsələləri komissiyasının üzvüdür.**

**3 monoqrafiyanın, 27 kitabın və onlarca elmi məqalənin müəllifidir.**

**Rus və ingilis dillərini bilir.**

**Evlidir, 2 övladı var.**




# PREZİDENTLİYƏ NAMİZƏDİN SEÇKİ PLATFORMASI

### 1. Yüksək mədəniyyətli azərbaycanlını necə "istehsal" edək?

Yeni çağırışlar Mədəniyyət Nazirliyinin yaradıcı, ideoloji və uzlaşdırıcı rolunun əhəmiyyətli dərəcədə yüksədilməsini tələb edir. Qarşıya rəqabətqabiliyyətli insan kapitalının inkişafına təkan verən vəzifələr qoyulmalıdır. Yüksək mədəniyyətli azərbaycanlı ölkəmizin rəqabətqabiliyyətli və təhlükəsiz milli inkişafının bərpaolunan strateji resursu və başlıca hərəkətverici qüvvəsidir. Yüksək mədəniyyətli azərbaycanlıların "istehsalı"nın ən mühüm siyasi texnologiyaları qismində elm, təhsil, ilk növbədə, uşaqlar və gənclər olmaqla, insanların maarifləndirilməsi və tərbiyələndirilməsi, şəxsiyyət mədəniyyətinin, ailə mədəniyyətinin, əmək kollektivlərinin və bütövlükdə, cəmiyyətin mədəniyyətinin inkişafı dayanır.

Mədəniyyət siyasəti yalnız mədəni irsin mühafizəsi üzərində qurulsa, onda biz heç vaxt dünya mədəniyyətinin dilində danışa bilməyəcək, qatıldığımız bütün beynəlxalq tədbirlərdə əvvəlki kimi etnoqrafik libasda görünəcək, folklor mərhələsində ilişib qalmış xalq sayılacağıq. Müasir dünyada mədəniyyət sahəsində mədəni irsin mühafizəsi belə, çağdaş, dinamik metodlara əsasən həyata keçirilir. Məsələn, İngiltərədə 5 öz janrında populyar əsərlər yazan müəllifə Şekspirin yubileyində onun məşhur pyesləri verilir ki, onları yenidən müasir dövrə uyğun yazsınlar. İndi əsas məsələ mədəniyyətin (buna çağdaş nəzəriyyədə "simvolik sərmayə" deyirlər) sistemli şəkildə vicdanlı seçimlərlə ixrac olunmasıdır. Neçə illərdir ki, mədəniyyət sahəsində daha çox bizim dilə tərcümə və ya təqlid formasında xaricdən idxal var.

Digər tərəfdən mədəni prosesin mərkəzdən bölgələrə doğru yayılmasına təkan vermək lazımdır. Mədəni proses ölkə boyu getmir, az qala bütün sənət qurumları, kitab evlərini bir küçəyə yığmışıq. Hətta paytaxtın içində belə mərkəzlə mərkəzyanı arasında uçurum var. Tiraj qalxmayınca, mədəni proses mərkəzdən kənara çıxmayınca, oxucunun sayını dəqiq bilməyəcəyik.

Mədəniyyət müəssisələrinin əlçatanlığını və hər bir uşağın əlavə təliminin bu strukturlardan keçməsini təmin etmədikcə, ayrıca xüsusi istedadlar xaric, cəmiyyətdə mədəni mühit formalaşdırmaq mümkün olmayacaq. Kitabxanaların, muzeylərin, konsert və sərgi salonlarının modern işlək modelini qurmalıyıq, yaradıcı insanı vaxtında dəstəkləyən mexanizmləri canlandırmalıyıq.

### 2. Müavinət və pensiya sistemində irəliləyiş üçün daha nələr etmək olar?

Bizdə son illərdə sosial yardım institutunun qanunvericilikdə təkmilləşdirilməsi üçün xeyli faydalı işlər görülüb. Praktikada qarşıya çıxan boşluqlar daha çox COVID-19 pandemiyası dövründə bu mövzuda düşünməyə xeyli əsaslar verdi. Fikrimizcə, sosial yardımların məqsədi yoxsulluq göstəricilərini azaltmaq deyil, təqaüdçülər, şəhid ailələri, müharibə veteranları, tələbələr kimi həqiqətən sosial müavinətlərə ehtiyacı olan təbəqələrin insanca yaşamasını təmin etmək olmalıdır.

İş yerlərində yeni doğulmuş 3 yaşınadək uşağa qulluğa görə ödənişli sosial məzuniyyətə gedən xanımlar sosial müavinətin məbləğinin az olması səbəbi ilə uşağın 3 yaşını gözləmədən uşaq bağçasının himayəsinə verərək işləmək üçün geri dönürlər. Bir neçə ildir ki, digər müavinətlər artırılsa da, bu müavinət növü artırılmır. Uşağa 1 yaş 6 aylığınadək 44 manat, 3 yaşınadək isə 28 manat müavinət verilir. Bu rəqəm reallıqda uşağın bir neçə günlük ehtiyacını ödəyəcək səviyyədə deyil.

Yaşa görə əmək pensiyası təyin olunan şəxslər pensiya təyin olunduqdan sonra işləməyə davam edərlərsə, ödənilən məcburi dövlət sosial sığorta haqları əlavə pensiya kapitalı formasında fərdi şəxsi hesablarda toplanır və yenidən hesablanması üçün pensiyanın üzərinə gələrək artıma səbəb olur. Ancaq tələb olunan staj və pensiya kapitalı olmayan şəxslərə yaşa görə 220 manat sosial müavinət təyin olunur və onlar təyinat aparıldıqdan sonra hər hansı fəaliyyətlə məşğul olarlarsa və ya adlarına aktiv VÖEN olarsa, sosial müavinət dayandırılır. Əgər müavinət aldığı dövrdə hər hansı fəaliyyəti olursa, həmin dövrdə aldığı müavinətin məbləği ondan tutulur, bu da sosial həssas vətəndaşların haqlı narazılığına səbəb olur.

Hərbçilər arasında müharibə ilə əlaqədar orqanizmin funksiyalarının 81-100% pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər olarsa, onlara əlilliyə görə əmək pensiyası təyin olunur. Ancaq şəxsin orqanizminin funksiyası 31-81% pozularsa onlara pensiya əvəzinə əlilliyə görə müavinət təyin olunur. Bu da, öz növbəsində aldıqları məbləğin həcmində böyük fərq edir və narazılığa səbəb olur.

Eyni zamanda, pensiyaçılara bayramlar münasibəti ilə minimum pensiya həcmində əlavə müavinət ayrılmalıdır.

Ən vacib məsələlərdən biri də pensiya yaşına çatmadan vəfat etmiş pensiyaçının sığorta fonduna yığılmış vəsaitinin inkişaf etmiş ölkələrdə olduğu kimi, onun qanuni varislərinə verilməsidir. Bu problem də yaxın zamanlarda öz həllini tapmalıdır.

### 3. Əlillərə diqqət artırılmalıdır!

Azərbaycanda əlillik əhalinin 4,3%-ni təşkil edir. Dünya əhalisi ilə müqayisədə, həm də real durumu nəzərə aldıqda, çox azdır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, ölkə əhalisinin 15%-i əlil hesab edilə bilər. Əlilliyin artmasına təsir edən amillər aşağıdakılardır:

– Tibbi amillər: Xəstəliklərin yeni tibbi üsullarla müalicəsi, müasir avadanlıqlarla xəstəliklərin diaqnostikasıdır. Bu da əvvəlki müəyyənləşdirilə bilməyən xəstəliklərin tez bir zamanada müəyyənləşməsinə, bu xəstəliklərlə yaşama faizinin yüksəlməsinə və əlillik əlamətlərinin saxlanmasına gətirib çıxarır.

– Demoqrafik amillər: Əhali sayının artmasıdır.

– Sosial amillər: Dünya ölkələrində gedən sürətli sosial-iqtisadi inkişaf nəticəsində avtomobillərin və digər mexanizmlərin sürətlə artması, travmaların sayının artmasına gətirib çıxarır. Travmadan başqa, şəhərləşmə (urbanizasiya) nəticəsində stress faktorları həddən artıq yüksək olur ki, bu da xəstəliklərin artımına səbəb olur. Həmçinin oturaq həyat tərzi, dayaq hərəkət sistemi xüsusilə onurğa xəstəliklərinin artmasına səbəb olur. Eyni zamanda, müharibə və silahlı münaqişələr də xəstəliyin tezliyinin və sonda əlilliyin artmasına gətirib çıxarır.

– Təbii amillər: Dünyada baş verən iqlim dəyişikliyi, təbii fəlakətlər və ekoloji şərait xəstəliklərin, travmaların, nəticədə əlilliyin artmasına birbaşa təsir göstərir. Beynəlxalq təşkilatların məlumatlarına görə, dünya ölkələrində, eləcə də ölkəmizdə əlilliyin cavanlaşması və orta ömür uzunluğunun artması prosesi gedir ki, bu da əlillərin əlillik vəziyyətində olma dövrünün artmasına və nəticədə əlilliyin sayına öz təsirini göstərir.

Əlilliyin qiymətləndirilməsindəki qüsurlar aşağıdakılardır:

-İlkin və təkrar əlilliyin qiymətləndirilməsi üçün on iş günü ərzində cavab verilməli olduğu halda aylarla cavab verilmir. Bu müddət bəzən 1 ilə qədər uzanır. Bu da iki səbəbdən olur. Birincisi, yerlərdə TSEK-lərin formalaşmaması, formalaşmış TSEK-lərdə tam tərkib olmamasıdır. Bu da TSEK-lərin iş yükünü artırır və qiymətləndirmə gecikir. İkincisi, təkrar əlilliyin qiymətləndirilməsindədir. Qanuna görə əlillik müddəti bitdikdən 6 ay ərzində əlillik bərpa olunarsa, pulu ödənilir. TSEK-lər də qəsdən əlilliyi 6 aydan artıq müddətə qiymətləndirirlər ki, əlil həmin imkandan məhrum olsun, bu da əlil vətəndaşlar arasında haqlı narazılıq yaradır.

Əlilliyin təyin olunması üçün əyani müayinənin olması vacibdir. Kompüter üsulu ilə əlilliyin təyin olunmasını mütərəqqi üsul adlandırsalar da, qeyri-rəsmi olaraq əyani üsulla müayinəyə üstünlük verirlər. Bu da TSEK-lərin azlığından və iş yükünün çoxluğundan asılı olaraq şikayətlərə vaxtında baxılmadığına görə haqlı narazılıqlar yaradır. Bunun üçün rayonlarda TSEK-lərin sayını artırmaq və lazımi kadr və avadanlıqlara komplektləşdirmək, əlilləri əyani müayinəyə cəlb edərək şikayətin qarşısını almaq olar.

# Seçkilər bütöv və suveren Azərbaycanı əhatə edəcək

## Rusiyadakı soydaşlarımız seçkiyə öyünclə gedəcəklər

**Bu fikri TASS agentliyinə müsahibəsində Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu bildirib.**




Diplomatik nümayəndəliyimizin rəhbəri xüsusi olaraq qeyd edib ki, 2024-cü il fevralın 7-nə nəzərdə tutulan növbədənkənar prezident seçkiləri sözün əsl mənasında müstəqil Azərbaycanın bütün ərazisini əhatə edəcək. Artıq azad olunmuş ərazilərdə məntəqə seçki komissiyaları formalaşdırılıb, səsvermə üçün hər cür şərait yaradılıb.

P.Bülbüloğlu deyib: "Şübhəsiz ki, yuxarıda sadaladıqlarım onu deməyə əsas verir ki, həm Azərbaycandakı, həm də onun hüdudlarından kənardakı vətəndaşlarımız yüksək fəallıq nümayiş etdirəcək, çiçəklənən və qüdrətli Azərbaycan naminə düzgün seçim edəcəklər".

Səfir deyib ki, Rusiyada yaşayan Azərbaycan vətəndaşları növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə böyük maraq göstərirlər: "Moskvadakı səfirliyimiz növbədənkənar prezident seçkilərinin keçirilməsinə hazırdır. Bu, mənim Moskvada uzun illər fəaliyyət göstərdiyim müddətdə səfirliyimizdə keçirilən birinci seçki deyil, yeni artıq təcrübə var. Amma bu dəfə Rusiyada yaşayan vətəndaşlarımızın daha böyük ruh yüksəkliyinin şahidi oluram".

P.Bülbüloğlu bildirib ki, Moskva ilə yanaşı, Azərbaycanın baş konsulluqlarının yerləşdiyi Sankt-Peterburq və Yekaterinburqda da seçki məntəqələri açılacaq.

## Müşahidə aparmaq üçün MSK-ya müraciət müddəti başa çatıb

**Növbədənkənar prezident seçkilərində Azərbaycan Respublikasının bütün ərazisində müşahidə aparılmasına dair ərizələrin Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi müddəti bu gün başa çatıb.**

Seçki Məcəlləsinə əsasən, seçkilərin təyin edildiyi gündən başlayaraq, seçkilərin keçirilməsi gününə 10 gün qalanadək aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı (öz təşəbbüsü ilə, habelə qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında), beynəlxalq (xarici) müşahidəçilər (qanunla müəyyənləşdirilmiş qaydada müvafiq dəvət əsasında Azərbaycan Respublikasına gələrkən Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçməklə) Azərbaycan Respublikasının bütün ərazisində müşahidə aparılmasına dair ərizələrini Mərkəzi Seçki Komissiyasına təqdim etməlidirlər.



Növbədənkənar prezident seçkiləri ilə əlaqədar bu müddət 2024-cü il yanvarın 28-dək olan dövrü əhatə edir.

Həmçinin, səsvermə gününədək seçki komissiyalarının iclaslarını müşahidə etmək üçün qeydiyyatdan keçməklə xüsusi icazə almaqdan ötrü Mərkəzi Seçki Komissiyasına müraciət edilməsi müddəti də 2024-cü il yanvarın 28-dək nəzərdə tutulub.

## Vətənin çağırışına "Hə!"

**Hazırda respublikamızda və xarici ölkələrdəki diplomatik korpuslarda növbədənkənar prezident seçkilərinə ciddi hazırlıq işləri davam etdirilir. Qazaxıstanda yaşayan vətəndaşlarımızın seçki hüququnun təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının bu ölkədəki səfirliyi tərəfindən mütəmadi olaraq müvafiq tədbirlər həyata keçirilir. Səfirlikdən verilən məlumata görə, vətəndaşlarımızın seçkilərdə səs vermələrinin təmin olunması üçün bütün imkanlardan istifadə olunur.**



Azərbaycan Respublikasının Qazaxıstandakı səfirliyi tərəfindən bu ölkədə daimi və ya müvəqqəti yaşayan Azərbaycan vətəndaşlarının fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkilərində səs vermələrinin təmin olunması üçün qanunvericilikdə nəzərdə tutulmuş bütün zəruri tədbirlər həyata keçirilməkdədir. Səfirliyin açıqlamasında qeyd olunur ki, ilkin müşahidələr seçici fəallığının yüksək olacağına əminlik yaradır. Qazaxıstanda yaşayan Azərbaycan vətəndaşlarına səsvermədə iştirak etmələri üçün müraciət olunaraq, seçkilərdə iştirak qaydalarına dair ətraflı məlumat verilib və onlar seçkidə fəal iştiraka dəvət olunub.

Həmçinin, səfirliyin və Almatı şəhərində konsulluq qeydiyyatında olan aktiv seçki hüququna malik vətəndaşlarımızın siyahısı tərtib olunaraq Azərbaycan Mərkəzi Seçki Komissiyasına təqdim olunub. Qazaxıstanda yaşayan vətəndaşlarımızın seçki hüquqlarının təmin edilməsi məqsədilə paytaxt Astana şəhərində yerləşən səfirlikdə, səfirliyin Almatı şəhərindəki ofisində, eləcə də Aktau şəhərindəki Baş Konsulluqda qanunvericiliyə uyğun olaraq seçki məntəqələri yaradılıb.

## "100-dən yuxarı"ların ən yaşlısı

### 9 övlad dünyaya gətirmiş Yaxşı nənənin 50-yə yaxın nəvə-nəticəsi var

**Saatlı rayon ərazisində 100-dən yuxarı yaşı olan 9 seçici var. Onlardan 5-i kişi, 4-ü qadındır. Yaşlı insanlardan 7-si 66 saylı Saatlı, 2-si isə 82 saylı İmişli–Saatlı seçki dairəsindədir. 66 saylı Saatlı seçki dairəsinin ən yaşlı seçicisi həm də rayonun ən uzunömürlüsüdür. O, 1919-cu il təvəllüdlü Nəcimova Yaxşı Ələddin qızıdır. Yaxşı nənə seçki dairəsinin 34 saylı Şirinbəyli seçki məntəqəsində səs verəcək. Ahıska türküdür...**



Qərara aldıq ki, rayonumuzun ən yaşlı seçicisi ilə görüşək. Odur ki yol aldıq düz Şirinbəyli kəndinə. Yaxşı nənə bizi elə öz evində qarşıladı. Övladları, gəlinləri, nəvələri ilə birlikdə. Maşallah, çox gümrah, yaşından xeyli cavan görünürdü. Mehriban, gülərüz nənəylə bir az söhbət etdik, ordan-burdan danışdıq, səhhəti ilə maraqlandıq. Uşaqlıq, gənclik illərinə döndük. "Eh, o dövrü, o sürgün illərini heç xatırlamaq istəmirəm" – dedi. Söhbət əsnasında öyrəndik ki, 1944-cü ildə Yaxşı nənə 24-25 yaşlarında ikən doğma elindən-obasından – Gürcüstanın Adıgün bölgəsindən Qazaxıstana sürgün edilib. 1959-cu ildə isə Azərbaycana pənah gətirib. Əvvəlcə Qax rayonuna, 1961-ci ildə isə Saatlıya, Şirinbəyli kəndinə köçüb. Və buranı özünə əbədi məskən seçib. Ev-eşik, təsərrüfat sahibi olub.

"Bu ev-eşiyi qurmaq üçün çox əziyyətlər çəkmişik, bala. Kolxoz dövründə gündüzlər tarlaya gedir, qayıdanda isə həyət-baca ilə əlləşərdik", – deyir. Sonra birdən gülümsəyir. Özündə illərin xatirəsini yaşadan üz qırışları ilə Yaxşı nənənin simasına təbəssümlə birgə nuranilik çökür. "Təndirdə bişirdiyim çörəyin qoxusu lap uzaqdan duyulardı. Bu kənddə ən dadlı çörəyi mən bişirərdim... Eh, indi qocalmışam, bişirə bilmirəm, – deyir. – Yaxşı "mantı" da bişirərdim. Sağ olsun gəlinlərim, indi bütün bu işləri onlar görür".

Yaxşı nənə 9 övlad dünyaya gətirib. Hazırda 4 oğlu, 4 qızı var. Özü nəvə-nəticələrinin sayını itirsə də, övladlarının dediyinə görə, 50-yə yaxın nəvə-nəticəsi var. "Bu uzunömürlüyün sirri nədədir, ay nənə?" – soruşduqda, – "Allahın verdiyi ömürdür, ay bala, yaşayırıq" – deyir. Məncə, Yaxşı nənəyə rayonumuzun "ən yaşlı seçicisi" titulunu qazandıran əsas səbəb həm də övladlarına, nəvə-nəticələrinə olan sevgisi, nikbin əhval-ruhiyyəsi, yaşamaq istəyi, hər kəslə səmimi, mehriban davranmasıdır.

Sonda bir az seçkidən də danışdıq. Bir arzusunu, özünün şəxsən seçki məntəqəsinə gedib səs vermək istəyini də dilə gətirdi. Bunu reallaşdırmaq üçün isə illərdir ayaqlarında yaranmış problemə görə yeriyə bilməyən Yaxşı nənə əl arabasına ehtiyacı olduğunu bildirdi. İnanırıq ki, səsvermə günündək rayonumuzun ən yaşlı seçicisinin bu arzusu yerinə yetmiş olar.

Sevimli, söhbətcil nənəni suallarımızla çox da yormaq istəmədik. Sağollaşıb, ayrıldıq: – Özünə yaxşı bax, Yaxşı nənə, növbəti seçkilərdə görüşənədək...

**Mahir ALLAHYARLI,**
**"Dönüş" rayon qəzetinin redaktoru**

## "Seçki gününü gözləyirik"

**6 saylı Ordubad–Culfa dairə seçki komissiyasının sədri Həsən Həsənov növbədənkənar prezident seçkiləri üzrə görülən hazırlıq işlərindən danışarkən dedi ki, demək olar ki, bütün məntəqələr seçkiyə tam hazırdır. Ümumiyyətlə, Naxçıvanda bütün seçkilər həmişə demokratik və şəffaf keçirilib. İndiyədək keçirilən seçkilərdə heç bir insident qeydə alınmayıb. Bunu seçkiləri izləyən beynəlxalq müşahidəçilərin müsbət rəyləri də təsdiqləyir. Növbədənkənar seçkilərin də yüksək səviyyədə keçiriləcəyinə tam əminik.**





DSK sədri dedi ki, Ordubad–Culfa seçki dairəsində də seçkilərə hazırlıq yüksək səviyyədə aparılır. Çalışırıq ki, ötən seçkilərdə olduğu kimi, builki seçkilərdə də nümunəvi olaq. Bundan ötrü bütün imkanlardan istifadə olunur. Seçki məntəqələri avadanlıqlar, metodiki vəsaitlər, MSK tərəfindən hazırlanmış təlimatlar və seçki materialları ilə təmin olunub. Sədr, katib, komissiya üzvləri və müşahidəçilər üçün əlverişli şərait ayrılıb. Səsvermə kabinələri tam hazır vəziyyətdədir. Ötən seçkilərdə olduğu kimi, bu il də seçicilərin barmaqlarının gözlə görünməyən mürəkkəblə işarələnməsindən istifadə olunacaq. Bu üsul aşkarlığın təmin olunmasında çox əhəmiyyətlidir. Çünki barmağı işarələnmiş seçici digər məntəqədə təkrar səs verə bilməz. Bütün seçki məntəqələrində seçicilərin barmaqları bənövşəyi lampalarla yoxlanılır.

H.Həsənov aşağı seçki komissiya üzvlərinin maarifləndirici proqramlara cəlb edilməsindən də söhbət açdı. Eyni zamanda, məntəqə seçki komissiyasının üzvləri üçün seçkinin keçirilməsi və protokolların doldurulması ilə əlaqədar gündəlik treninqlər keçirilib. Mərkəzi Seçki Komissiyasının maarifləndirmə proqramı çərçivəsində treninqlərdə aşağı seçki komissiya üzvlərinin bilik və bacarıqları daha da təkmilləşdirilib. Növbəti təlim Ordubad rayonunda təşkil olunub. Təlimlərdə hər bir iştirakçıya istifadə etmək və yaxından tanış olmaq üçün Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar təqdim olunub. Bununla yanaşı, onlar seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, seçki günü müstəsna hallar, səslərin sayılması və səsvermənin nəticələri haqqında rəsmi protokolların doldurulması da daxil olmaqla, bütün prosedurlar barədə ətraflı məlumat əldə edirlər.

DSK sədri bildirdi ki, növbədənkənar prezident seçkilərində dairə üzrə 63 seçki məntəqəsi yaradılıb və 46 min 138 nəfər seçici qeydə alınıb. Onlardan 80 nəfəri ilk dəfə səs verəcək. Yeddi seçki məntəqəsində veb-kamera quraşdırılıb ki, onlardan 5-i Ordubad, 2-si isə Culfa rayonu ərazisindədir. Seçkilərdə bütün seçicilərin iştirakı təmin olunacaq. O cümlədən, sağlamlıq imkanları məhdud şəxslər üçün də daşınan qutu vasitəsilə səsvermə imkanı yaradılacaq. Biz seçicilərin yolunu gözləyirik.

## Beynəlxalq müşahidəçilər Saatlıda

**Növbədənkənar prezident seçkiləri beynəlxalq aləmin diqqət mərkəzindədir. Seçkilərə hazırlıq işləri ilə maraqlanan ATƏT/DTİHB müşahidəçiləri bu günlərdə Saatlı rayonunda seçkiyə hazırlıq prosesi ilə tanış olublar.**




DSK sədri qeyd edib ki, seçkilərə hazırlıq prosesi qanunvericilik çərçivəsində davam edir: Builki seçkilərdə 7 seçki məntəqəsində veb-kamera quraşdırılıb. Fiziki qüsurlu seçicilərin səsvermə hüququnu təmin etmək məqsədilə 12 seçki dairəsində pandus lar qoyulub.

A.Əliyev deyib ki, müşahidəçilərin qeydiyyatdan keçmələri ilə bağlı heç bir problem yoxdur. Şəffaflığın təmin olunması üçün müşahidəçilərin sayı nə qədər çox olsa, bir o qədər yaxşıdır. Dairə üzrə 639 müşahidəçi qeydiyyatdan keçib. Bununla yanaşı, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun müşahidəçiləri də dairə üzrə seçkilərə hazırlıq prosesi ilə tanış olublar. Əminliklə demək olar ki, beynəlxalq müşahidəçilər hər hansı bir nöqsanla qarşılaşmayıb.

DSK sədri seçki komissiyalarının üzvlərinə maarifləndirici treninqlərin keçirildiyini, seçki prosesi ilə bağlı metodiki məlumatlandırma işinin aparıldığını da diqqətə çatdırdı. Dedi ki, bütün seçkim məntəqələri seçkiyə tam hazırdır.

## Türkiyədən əks-səda: Zəfər yoluna davam!

**Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərinə ölkə hüdudlarından kənarda yaşayan həmvətənlərimiz də böyük maraq göstərirlər. Onlar seçkinin keçiriləcəyi günü səbrsizliklə gözləyir və Zəfər seçkisində iştirak etməkdən qürur duyurlar. Ən əsası ona görə ki, ilk dəfə olaraq seçkilər Azərbaycanın bütün ərazilərində keçiriləcək.**

Məlumdur ki, 44 günlük Vətən müharibəsindən və ötən ilin sentyabrında Qarabağda keçirilmiş bir günlük antiterror əməliyyatından sonra Azərbaycanın ərazi bütövlüyü tam bərpa olundu. Hazırda işğaldan azad edilmiş bütün ərazilərimizdə Azərbaycan Bayrağı dalğalanır. Bu baxımdan növbədənkənar prezident seçkilərinin bütün ərazilərimizdə keçirilməsi qürurverici haldır. Bu, hər bir soydaşımızın, eləcə də dünya azərbaycanlılarının ən böyük arzusu idi.

Xaricdə yaşayan həmvətənlərimiz də Qarabağda keçiriləcək növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini səbrsizliklə gözləyirlər. Bunu qardaş Türkiyənin Əskişəhər Azərbaycanlıları Dərnəyinin sədri Cavid Məmmədov deyib. O, prezident seçkilərinin hər kəsin ürəyindən gələn bir hadisə olduğunu bildirib. Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunduqdan sonra seçkilərin ilk dəfə ölkənin bütün ərazisində keçirilməsi bayram ab-havası yaradıb.

Torpaqlarımızın işğal altında qaldığı dövrdə hər kəsin ürəyinin yaralı olduğunu bildirən dərnək sədri deyib ki, əvvəlki seçkilər zamanı hamının arzusu növbəti seçkilərin Qarabağı da əhatə etməsi idi. Hər kəs bu şüarları səsləndirirdi. İndi Azərbaycan bütün torpaqlarını işğaldan azad edib və xalqımızın arzusu yerinə yetib. Azərbaycan artıq yeni dövrə qədəm qoyub və bu dövrdə güclü addımlar atması üçün prezident seçkiləri mütləq idi. O, əminliklə bildirib ki, Azərbaycan xalqı doğru qərar verəcək. Bu seçkilər xaricdə yaşayan soydaşlarımızı da sevindirir.

Seçicilərdə böyük ruh yüksəkliyinin, xoş əhval-ruhiyyənin olduğunu söyləyən C.Məmmədov bildirib ki, Əskişəhər Azərbaycanlıları Dərnəyinin üzvü olan soydaşlarımız da seçkilərdə yüksək fəallıqla iştirak edəcəklər. Dərnək rəhbəri deyib ki, son illər Azərbaycanda keçirilən bütün seçkilər demokratikliyinə, şəffaflığına görə hər birimizdə qürur doğurur. Bu seçkilərin də azad və ədalətli keçirilməsi ilə Azərbaycan demokratik prinsiplərin inkişafına xüsusi önəm verdiyini nümayiş etdirəcək.

Səhifəni hazırladı: Əliqismət BƏDƏLOV XQ

# Torpaq adamı dövlət dəstəyindən güc alır

**Bu gün ərzaq təhlükəsizliyini gerçəkləşdirən, ixrac potensialının daha da güclənməsinə, habelə kənd yerlərində əhalinin rifahının daha da yüksəlməsinə töhfə verən aqrar sektorun inkişafı hökumətin diqqət mərkəzində saxladığı prioritet istiqamətlərdən biridir. Son illərdə uğurla həyata keçirilən davamlı inkişaf strategiyasına uyğun olaraq bu sahədə çoxsaxəli dövlət dəstəyi sisteminin qurulması, sözügedən sektorun potensialının reallaşdırılmasına yönəldilən resursların həcminin artırılması və nəticədə kənd təsərrüfatı məhsullarının istehsalında dinamik artım əldə edilməsi aqrar sistemin gücləndirilməsinə dövlət qayğısının bariz ifadəsidir.**

Qeyd edək ki, aqrar sektorun potensialının gücləndirilməsi müxtəlif istiqamətlər üzrə reallaşdırılan genişmiqyaslı tədbirlərlə həllini tapır. Məsələn, bitkiçiliyin canlanması üçün intensiv və ekstensiv amillərə xüsusi diqqət yetirilir, heyvandar-



lıq sahəsinin tərəqqisi isə tədrici intensiv metodlara əsaslanılır. Azərbaycanda 3 il əvvəl tətbiqinə başlanılan aqrar sığortanın əhatə dairəsi davamlı şəkildə genişləndirilir. Aqrar Sığorta Fondunun fermerlərə ödənişləri isə hazırda rekord həddə çatır. Fermerlərin ötən il adı çəkilən fonddan 4 milyon manat civarında sığorta ödənişi alması, belə bir göstəricinin isə 2021–2022-ci illərlə müqayisədə təxminən 2 dəfə çox olması bunun bariz ifadəsidir.

Onu da deyək ki, kənd təsərrüfatının inkişafında meliorasiya layihələrinin icrası da əhəmiyyətli rol oynayıb. Bu fikrin təsdiqi üçün xatırladaq ki, respublikada meliorasiya-irriqasiya sisteminin yenidən qurulması və təkmilləşdirilməsi üçün dövlət büdcəsi vəsaitləri hesabına son 10 il ərzində 390 min hektardan çox sahədə torpaqların su təminatı yaxşılaşdırılıb, 188 min hektar sahə yeni suvarılan torpaqlar qrupuna əlavə edilib. Həmçinin suvarılan sahələrdə müvafiq dövlət dəstəyi hesabına tətbiq olunan müasir suvarma sistemlərinin payı artıq 5 faizdən çox yüksəlib.

Aqrar sahədə həyata keçirilən bütün bu və digər tədbirlər nəticəsində 2022-ci illə müqayisədə 2023-cü ildə müəyyən artım göstəriciləri qeydə alınıb. Məsələn, ilkin statistik rəqəmlərə diqqət yetirəndə görürük ki, hesabat dövründə respublikada, təqribən, 12 milyard manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal edilib. Bu rəqəm ötən ilin eyni dövrü ilə müqayisədə 3,1 faiz çox olub. Bundan başqa, son bir ildə ölkədə istehsal olunan bitkiçilik məhsullarının dəyəri 2,8 faiz artaraq 5 milyard 842 milyon manat, heyvandarlıq məhsullarının dəyəri isə 3,3 faiz artaraq 5 milyard 728 milyon manata yüksəlib.

Son rəsmi statistik məlumata əsasən, keçən il qarğıdalı da daxil olmaqla tarlalardan 3 milyon 223 min ton və yaxud 2022-ci ilə nisbətən 2,9 faiz çox dənli və dənli paxlalı bitkilər, 1 milyon 813 min ton (0,1 faiz çox) tərəvəz, 1 milyon 249 min ton (0,1 faiz çox) meyvə və giləmeyvə, 222 min ton (5,3 faiz çox) üzüm, 1124 ton (12,3 faiz çox) yaşıl çay yarpağı, 29 min ton (1,3 faiz çox) günəbaxan, 214 min ton (4,8 faiz çox) şəkər çuğunduru, 5 min ton (22,3 faiz çox) tütün yığılıb.

**Ekspert rəyi**



**Emin BAĞIROV,**
**ETN Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, şərhçi**

Aqrar sektorda əldə edilən uğurları şərtləndirən əsas amillərdən biri də fikrimcə, bu sahəyə ötən illər ərzində əlavə güzəştlərin verilməsi ilə bağlı olub. Məsələn, Vergi Məcəlləsində dəyişikliyə əsasən, cari ildən ölkədə yem və yem əlavələrinin satışı üzrə dövriyyələr daha 3 il müddətinə əlavə dəyər vergisindən (ƏDV) azad edilib. Başqa sözlə, ölkədə siyahısı Nazirlər Kabineti tərəfindən təsdiqlənən yem və yem əlavələrinin satışı üzrə dövriyyələrə tətbiq olunan ƏDV-dən azadetmənin müddətinin 2027-ci il yanvarın 1-nə kimi uzadılması qərara alınıb.

Xatırladaq ki, kənd təsərrüfatı məhsullarının istehsalı və satışı vergidən azad olunub. 2020-ci il yanvarın 1-dən heyvandarlıq və quşçuluq təsərrüfatlarında işlədilən yem və yem əlavələrinin satışı üzrə dövriyyələr də tam olaraq ƏDV-dən azad edilib. Həmin malların siyahısı Nazirlər Kabinetinin 30 iyun 2022-ci il tarixli qərarı ilə təsdiqlənib. Bu siyahıya qüvvəli, qaba və şirəli, həmçinin bitki və heyvan mənşəli yemlər, heyvandarlıqda və quşçuluqda istifadə olunan müəyyən amin turşuları və digər maddələr daxil olunub.

Qeyd edək ki, artıq bu cür məhsulların bütün zəncirlər üzrə dövriyyəsinin ƏDV-dən azad olunması təbii ki, heyvandarlığın inkişafına, eyni zamanda, bu sahədə müsbət göstəricilərin qeydə alınmasına öz təsirini göstərir. Vergi güzəşti, həm də ölkədə istehsal edilən mal, qoyun və quş ətinin bahalaşmasının qarşısını alır.

Vergi Məcəlləsinə edilən digər bir dəyişikliyə əsasən, cari ildən Azərbaycanda buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı daha 3 il müddətinə ƏDV-dən azad edilib. Güzəştin müddəti 2027-ci il yanvarın 1-nə kimi uzadılıb.

Xatırladaq ki, Azərbaycanda buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı 2017-ci il yanvarın 1-dən güzəşt müddətinin iki dəfə uzadılmaqla vergidən azad edilmişdi.

Ümumiyyətlə, son illər ərzində aqrar sahədə sahibkarlığın inkişafını stimullaşdıran bir çox qanunlar qəbul edilib, çoxsaylı fərmanlar imzalaıb və dövlət proqramları təsdiqlənib. Təbii ki, bütün bunlar kənd təsərrüfatının inkişafını şərtləndirib. Bundan başqa, respublikada istehsal olan məhsulların "Made in Azerbaijan" brendi adı ilə dünyanın bir çox ölkəsinə ixracına başlanıb və müsbət göstəricilər əldə edilib. Belə ki, statistik göstəriciyə əsasən, 2003-cü ildə kənara göndərilən kənd təsərrüfatı və emal məhsullarının dəyərinin 166 milyon ABŞ dollarından 2023-cü ildə 912 milyon ABŞ dollarına yüksəlib.

Aqrar sektordan bəhs edərkən, onu da bildirim ki, bu sahənin regionların tərəqqisinə müsbət təsiri danılmazdır. Başqa sözlə, kənd təsərrüfatında davamlılığın və mühüm makroiqtisadi nəticələrin əldə olunması bölgələrin inkişafını, ən başlıcası isə ərzaq təhlükəsizliyini şərtləndirir. Dövlətimizin başçısı tərəfindən Hökumət qarşısında əhalinin ərzaq təminatının tam ödənilməsinin daim strateji vəzifə kimi qoyulması, 2024-cü ilin dövlət büdcəsində bu məsələnin həlli istiqamətinə 500 milyon manatdan çox vəsaitin nəzərdə tutulması da bunun bariz ifadəsidir.

Azərbaycanda ərzaq təhlükəsizliyindən bəhs edərkən, bir məsələni də xatırlatmaq istərdim. Hökumət artıq ərzaqlıq buğda istehsalçılarının aldığı kreditlərə dövlət zəmanəti verməyə, eləcə də faiz subsidiyası ödəməyə başlayıb. Bunun üçün Prezident İlham Əliyev "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" 19 dekabr 2018-ci il tarixli fərmanında dəyişiklik edib, Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə fərman imzalayıb.

Bununla belə, 2023-cü ildə respublikada ərzaqlıq buğdanın dövlət tədarük qiyməti 2022-ci illə müqayisədə 22,4 faiz az – 450 manat/ton müəyyənləşdirilib. Əvəzində fermerlərdən alınan şəkər çuğundurunun qiyməti artırılıb. "Azərsun Holdinq" MMC-yə məxsus "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC tərəfindən 2023/2024-cü təsərrüfat ilində qışlıq və yazlıq mövsümü üzrə şəkər çuğundurunun hər tonunu şəkərlilik faizinə uyğun olaraq 4 manat baha – 485 manata alınmasına qərar verilib.

***Vaqif BAYRAMOV***
***XQ***

# Orta Dəhlizin nəbzi Azərbaycanda döyünür

(əvvəli 1-ci səhifədə)

Yığıncaq çərçivəsində Azərbaycan, Gürcüstan və Qazaxıstanın dəmir yolu rəhbərlərinin üçtərəfli görüşü də keçirilib. Görüşdə hər üç tərəfin təsisçisi olduğu Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşutu çərçivəsində yaradılmış birgə müəssisənin fəaliyyətinin təşkili və biznes modelinin müəyyən olunması müzakirə olunub.

Məlumatda o da bildirilib ki, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə bağlı keçirilən "dəyirmi masa"da iştirak edib. Söhbət zamanı ötən il Orta Dəhliz üzrə qarşıya çıxan çətinliklər, əldə olunmuş nailiyyətlər, eləcə də növbəti illər ərzində marşrutun səmərəliliyinin artırılması ilə bağlı birgə atılacaq addımlar, xüsusən də sözügedən marşrutun rəqəmsallaşdırılması üzrə müzakirələr aparılıb.

"Dəyirmi masa"da Dünya Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən Orta Dəhliz üzrə aparılmış tədqiqatın nəticələri və ondan irəli gələn tövsiyələr barədə məlumat verilib.

Qeyd edək ki, Asiya ilə Avropanı birləşdirən Orta Dəhliz ideyası dünyada baş verən gərgin geosiyasi proseslər fonunda irəli sürülüb. 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə bu layihə həyata vəsiqə alıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa da qoşulub. Hazırda Çin–Qazaxıstan sərhədindən başlayan marşrut Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Orta Dəhliz təkcə Azərbaycanın deyil, regiondakı digər dövlətlərin də iqtisadi maraqlarını əks etdirən irihəcmli beynəlxalq nəqliyyat layihəsidir. Onun iqtisadi baxımdan səmərəli olması ilə yanaşı, siyasi əhəmiyyəti də az deyil. İndi dünyanın ən iddialı iqtisadi proqramı hesab olunan, Çin və Avropanı inkişaf etmiş yollar, yüksək sürətli dəmir yolu xətləri, elektrik xətləri, limanlar, boru kəmərləri və digər mühüm infrastruktur vasitələri ilə birləşdirməyi hədəfləyən bu layihə 65 ölkəni və dünya üzrə ümumi daxili məhsulun 40 faizini əhatə edir. Dünya Bankının məlumatına görə, hazırda dəhliz boyunca yerləşən 70 ölkədə (Çin istisna olmaqla) "Bir kəmər–bir yol" təşəbbüsü çərçivəsində investisiyalar 575 milyard ABŞ dolları təşkil edir.

Son zamanlar Orta Dəhliz Şərqlə Qərb arasında etibarlı logistika üçün optimal seçimə çevrilib. Xatırladaq ki, sözügedən marşrut Çin və Avropa arasında üç ticarət dəhlizindən biridir və onun uzunluğu avtomobil və dəmir yolu ilə birlikdə 4256 kilometr, dəniz yolu ilə isə 508 kilometr təşkil edir. Sözügedən dəhlizlə hərəkət edən konteyner bloku qatarı Çindən Avropaya yükləri orta hesabla 20-25 günə çatdırır ki, bu da mühüm logistik üstünlüklərdən hesab olunur. Dəqiqləşdirilmiş hesablamalara görə, Çindən Avropaya gedən yük qatarı Orta Dəhlizi seçərsə, 10 min kilometr deyil, 7 min kilometr məsafə qət etməlidir. Eyni qatar Cənub dəhlizi üzrə göndərilsə, Süveyş kanalı üzərindən gəmi ilə 20 min kilometr yol qət edir. Bu da Asiya ilə Avropa arasında qlobal ticarətdə dəhlizin nə qədər sərfəli və təhlükəsiz olduğunu nümayiş etdirir. Bu baxımdan yaxın illərdə Orta Dəhliz öz imkanları ilə region ölkələrinin koordinasiyalı əməkdaşlığı sayəsində dünya ticarətinin ən mühüm həlqələrindən biri ola bilər.

Yeri gəlmişkən, Çinin Sian şəhərindən yola çıxan çıxan bu ilin ilk blok qatarı cəmi 11 günə Azərbaycana çatıb. Yüklər Qazaxıstanın Aktau limanından Ələt limanına Qazaxıstanın "Berkut" fider gəmisi vasitəsilə gətirilib. Qatar 55 konteynerdən ibarətdir. Hər biri 40 futluq olan konteynerlərdə ölkəmizə elektromobillər, tikinti materialları, müxtəlif ölçülü borular və digər məhsullar çatdırılıb. Siandan yola salınmış daha bir qatar isə yaxın günlərdə Bakıya çatacaq. Bu da "ADY Konteyner" MMC-nin konteyner blok qatarlarının təşkili istiqamətində Çin şirkətləri ilə uğurlu əməkdaşlığından xəbər verir.




Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun önəmli iştirakçılarından sayılan Azərbaycan dəhlizin funksionallığının artırılmasına mühüm töhfələr verir. Təkcə onu qeyd etmək kifayətdir ki, son 20 ildə Azərbaycanda 19 min kilometr avtomobil yolu və 1400 kilometr dəmir yolu tikilib və ya əsaslı təmir edilib. Hazırda isə 2017-ci ildə istifadəyə verilmiş və Orta Dəhliz vasitəsilə daşımalarda böyük əhəmiyyət kəsb edən Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin daha da artırılması üçün əlavə infrastruktur işləri aparılır. Bu məqsədlə Azərbaycanın dövlət büdcəsindən 100 milyon dollar vəsait ayrılıb. Həmin vəsait hesabına yolun illik yükötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona qaldırılacaq. Eyni zamanda Azərbaycanın beynəlxalq səviyyəli Ələt Dəniz Limanının yükaşırma qabiliyyətinin 15 milyon tondan 25 milyon tona qədər artırılacağı nəzərdə tutulur ki, bu da Orta Dəhliz vasitəsilə daha çox yükün daşınmasına imkan yaradacaq.

Ölkəmizin işğaldan azad edilmiş ərazilərində yeni nəqliyyat infrastrukturunun yaradılması, o cümlədən Zəngəzur dəhlizinin fəaliyyətə başlaması Orta Dəhliz boyunca yeni nəqliyyat qolunun açılması baxımından xüsusi əhəmiyyət daşıyır. Mütəxəssislərin hesablamalarına görə, Zəngəzur dəhlizinin istifadəyə verilməsi Azərbaycan ərazisindən illik təxminən 35 milyon ton yükün daşınmasına imkan verə bilər. 2024-cü ildə yekunlaşdırılması planlaşdırılan, uzunluğu 140,6 kilometr olan Horadiz–Ağbənd dəmir yolu xəttinin tikintisi sürətlə davam etdirilir. Zəngəzur dəhlizinin əsas elementlərindən biri olacaq bu dəmir yolu xəttinin işlək mexanizmə çevrilməsi ilə Bakı–Tbilisi–Qarsdan sonra Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaranacaq. Bu da Şərq-Qərb istiqamətində yüklərin sürətlə daşınmasında əhəmiyyətli rol oynayacaq.

Göründüyü kimi, Azərbaycanın hazırda üzərində işlədiyi nəqliyat və transmilli enerji layihələrinin inkişaf etdirilməsi Orta Dəhlizin potensialını yüksəldəcək, siyasi və investisiya dəstəyini artıracaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Hacıqabulda Özbəkistan avtomobil müəssisəsi



**Hacıqabul sənaye məhəlləsində fəaliyyət göstərən Özbəkistan müəssisəsi Azərbaycanda istehsal olunacaq avtomobillərin sayını 30 minə çatdırmaq niyyətindədir. Bu barədə Özbəkistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov Bakı Dövlət Universitetində Azərbaycanda Özbəkistanın Elm və Mədəniyyət günlərinə həsr olunmuş tədbirdə jurnalistlərə açıqlamasında məlumat verib.**

Səfirin sözlərinə görə, Hacıqabul Sənaye Məhəlləsindəki zavodda ilkin mərhələdə böyük hissələrin yığılmasına başlanılıb. Hazırda isə müəssisədə yerli istehsalın həcmini artırmağa yönələn işlər aparılır. Qeyd edək ki, 2021-ci ildə Hacıqabul Sənaye Məhəlləsində fəaliyyətə başlayan avtomobil zavodunda hazırda 6 növ avtomobil istehsal olunur. Müəssisənin istehsalı olan "Onyx", "Cobalt" və digər modellərə tələbat yüksəkdir.

İstehsalın artırılması üçün yeni sexlərin tikiləcəyini bildirən səfir onu da deyib ki, hazırda Hacıqabuldakı zavodun ətrafında orta və kiçik müəssisələrin yaradılması ilə bağlı işlər görülür.

***XQ***

# Bank sektoru biznes kreditlərini artırır

**Bank sektorunda biznes kreditlərinin həcminin ehtimal olunan potensialının 16,5 milyard manata çatdırılması, müvafiq korporativ idarəetmə, şəffaflıq və rəqabət qabiliyyətliliyinin inkişafı və risk əsaslı tənzimləmə və nəzarətin gücləndirilməsi hədəflənir. Bunu Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov "2024–2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası"nı şərh edərkən bildirib.**




Strategiyaya uyğun olaraq bank sektorunda əlverişli və məsuliyyətli bank xidmətlərinin genişləndirilməsi vasitəsilə dayanıqlı inkişafın dəstəklənməsinin nəzərdə tutulduğunu bildirən bank sədrinin sözlərinə görə, bu məqsədlə bank sektoru üzrə bazarın genişləndirilməsi, bank olmayan kredit təşkilatlarını inkişaf etdirməklə onların iqtisadiyyatın maliyyələşməsində rolunun yüksəldilməsi, eləcə də nəzarət çərçivəsinin müasirləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi planlaşdırılır.

***XQ***

# Türkdilli Dövlətlərin Rəqabət Şurası da yaradılıb

**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin nümayəndə heyəti Türk Dövlətləri Təşkilatına (TDT) üzv türkdilli dövlətlərin rəqabət qurumlarının İstanbulda keçirilən iclasında iştirak edib.**

Dövlət Xidmətindən verilən məlumatda bildirilir ki, Türkiyənin Ticarət Nazirliyi, Türkiyə Rəqabət Qurumu, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Özbəkistan, Türkmənistan və Şimali Kipr Türk respublikalarının rəqabət orqanlarının nümayəndələrinin iştirak etdikləri bu tədbirin keçirilməsində məqsəd Türkdilli Dövlətlərin Rəqabət Şurasının (TDRŞ) təsis edilməsi olub.



İclasda TDRŞ qarşısında məlumat mübadiləsinin təmin olunması, qlobal çətinliklərlə mübarizə, rəqabət siyasəti və hüququnun inkişaf etdirilməsi, ölkələrarası inteqrasiya və regional əməkdaşlığın gücləndirilməsi kimi məsələlərin həlli mühüm vəzifə kimi qoyulub.

***XQ***

Ölkəmizi dünyaya tanıdanlar

# Azərbaycanın "Əl-Cəzirə"dəki səsi

**Bu gün öz müstəqilliyi ilə tək kanal olan "Əl-Cəzirə" dünyada baş verənlərə qərəzsiz və operativ münasibəti ilə seçilir. Qarabağ savaşında Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında da bu kanal ədalətli mövqeyindən çəkinməyib. 2020-ci il oktyabrın 2-də Azərbaycan Prezidenti İlham Əliyevin müsahibəsini yayımlamaqla Vətən savaşı dövründə Azərbaycanın informasiya blokadasının yarılmasına töhfəsini verib. Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının gedişi, həmçinin 44 günlük müharibədə Azərbaycanın qələbəsindən sonra Qarabağda və regionda yaranmış vəziyyət barədə geniş reportaj da həmin dəstəyin davamı olub və fəxrlə deməliyik ki, bu əlaqələr bu gün də uğurla davam etdirilməkdədir...**



Məşhur kanalın belə xidmətlərində orada çalışan həmyerlimiz Aysəba Umudlunun danılmayan rolu olub. "Əl-Cəzirə"nin əməkdaşı olmaq da hər kəsə qismət olmayan uğur sayıla bilər. Aysəba xanımın orada çalışması öyünə biləcəyimiz faktdır.

Aysəba Umudlu bu qurumda çalışan yeganə azərbaycanlıdır. O, Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsini məzunudur. Magistratura təhsilini London Siti Universitetinin beynəlxalq siyasət və insan hüquqları fakültəsində alıb. Həm də Bakı Beynəlxalq Tələbə Klubunun (BBTK) rəhbəri kimi Böyük Britaniyadakı diasporumuzun fəaliyyətində yaxından iştirak edib, Azərbaycan həqiqətlərinin yayılması, milli mədəniyyətimizin tanıdılması və təbliği istiqamətində mütəmadi keçirilən tədbirlərin təşkilatçılarından olub. Məhz onun rəhbərliyi, BBTK-nın təşkilatçılığı və Azərbaycan Respublikası Prezidenti Yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanda Əcnəbi Tələbə Gənclərin II Ümumrespublika Forumu" keçirilib.

Beynəlxalq Avrasiya Mətbuat Fondunda çalışdığı vaxtlarda Avrasiya Media Şəbəkəsinin qurucularından biri, Azərbaycanda təhsil alan əcnəbi gənclər şəbəkəsinin – Bakı Beynəlxalq Tələbə Təşkilatının qurucusu olub. Hələ tələbəlik illərində ictimai işlərdə fəallığı ilə seçilən Aysəba Umudlunun jurnalist kimi fəaliyyəti "Xəzər TV" ilə bağlıdır. Bu kanalda, ola bilsin, tamaşaçıların da unutmadığı "Səfirlərə səfər" verilişinin həm ideya müəllifi, həm də icraçısı olub.

"Əl-Cəzirə" TV-də çalışmaqsa onun iş həyatının zirvəsi olub və Aysəba xanım bu günə qədər məşhur kanalda çoxsaylı uğurlara imza atıb. Xüsusən də 44 günlük Vətən müharibəsi dövründə bir vətənpərvər azərbaycanlı kimi ölkəmizin haqq səsinin dünyaya çatdırılmasında Aysəba xanımın böyük rolu və zəhməti olmuşdur.

Aysəba xanım hazırda Dohada yaşayır, doğma Azərbaycanı, doğulduğu Qarabağı unutmur, çiçəklənən Vətənimizin uğurlarının dünyaya tanıdılmasında yorulmadan çalışır. Həm də Qətərdə bu sahədə fəaliyyət göstərən Azərbaycan Diaspor Şurasının sədr müavinidir. Gənc azərbaycanlı xanım 2020-ci ildə Qətərdə daha məsul vəzifəyə də təyinat alıb. O, "Yaxın Şərq Liderlik Akademiyası"nın (MELA) 2020–2022-ci illər üçün Qətər üzrə prezidenti seçilib və bu mötəbər təşkilatda yeganə ərəb olmayan prezident olub.

Xatırladaq ki, Aysəba Umudlu Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyevin qızıdır. Heç şübhəsiz, onun beynəlxalq aləmdə qazandığı uğurlar təkcə Mirzəyevlər ailəsinin deyil, bütövlükdə Azərbaycan xalqının öyünə bildiyi hadisədir. Həm də ona görə ki, Azərbaycan həqiqətlərinin dünyaya olduğu kimi çatdırılmasına bu gün də böyük ehtiyacımız var.

***Namiq QƏDİMOĞLU***
***XQ***

Aşıq Ədalət Nəsibov – 85

# Sazın Ədaləti – Ədalətin sazı...

**Bu iki məfhumu bir-birindən ayırmaq olmur. Saz deyəndə Ədalət, Ədalət deyəndə qara saz yada düşür. Elə buna görə də UNESCO-da dünyanın nadir musiqi ifaçıları sırasında Aşıq Ədalət Nəsibovun musiqi albomu buraxılıb.**

Ədalət Nəsibov 1939-cu il yanvarın 27-də Qazaxda yoxsul bir ailədə dünyaya göz açıb. Atası pinəçi idi. Amma gözəl saz çalmağı da bacarırdı. Ədalət də erkən yaşlarından saza könül verib, bu gözəl musiqi alətinin "dil"ini də elə atasından öyrənib... Hələ 11 yaşında ikən Moskvada, Kremlin Qurultaylar Sarayında möhtəşəm ifası ilə tamaşaçıları heyrətləndirib.

Ömrünün sonunadək sazla könül-könülə yaşayıb. O, haqq aşığı olmaqla, Tanrı töhfəsi kimi verilən fitri istedadı ilə şöhrət qazanıb, sənətin zirvəsinə ucalıb. Saz sənətinə yeniliklər gətirib. Saza 5 pərdə, 6 sinə pərdəsi və 7 yarımpərdə əlavə edib. Onun ifasında "Ruhani", "Yanıq Kərəmi", "Naxçıvanı", "İncəgülü" və onlarca digər saz havaları bənzərsiz və təkrarolunmaz səslənib həmişə. Mərhum şair Qasım Qasımzadə Aşıq Ədalətə ithaf etdiyi şeirdə onun sənətinə heyranlığını belə ifadə edib:

***O əfsuna sən daldıqca***
***Düşünürsən, bu avazda***
***Yüz sənətin hikməti var.***
***Şövqə gəlib o, çaldıqca***
***Deyirsən ki, bu tək sazda***
***Bir orkestr qüdrəti var...***

Dünya şöhrətli hind aktyoru Rac Kapur da Ədalətin ifasını dinləyən zaman onun sazında bir orkestr qüdrətinin olduğunu deyib. Ümumiyyətlə, Aşıq Ədalətin sənətinə dünyaca məşhur insanlar, o cümlədən, böyük türk yazıçısı Əziz Nesin, Xalq şairi Səməd Vurğun, Xalq yazıçısı Mirzə İbrahimov və başqaları çox yüksək qiymət veriblər.

Aşıq Ələsgərin şeiriyyətdə və aşıq söz sənətində ucaldığı zirvəyə, saz ifaçılığında da Aşıq Ədalət ucalıb. Doğrudan da, onun ifaları möhnətin qədərindən, insan ürəyinin qəhərinə qədər elə duyğuları, elə hissləri dilə gətirir ki, bunu ifadə etməkdə söz də acizdir. Başını sazının çanağına söykəyib çalanda



düşünürdüm ki, sanki bənövşə ətri içib, yuxuya gedib. Amma sazı sinəsində dil-dil ötür, barmaqları pərdələrdə gəzişdikcə yorulmaq bilmirdi...

Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı deyir: "Biz Ədalət Nəsibovu gözəl çalğısına görə tanıyırıq və sevirik. Amma bizim tanıdığımız bir Ədalət Nəsibov da var. O Ədalət Nəsibov ki, 50-dən çox dastanı, saya gəlməyən aşıq şeirini sinəsində dəftər edib."

Dədə Ədalətin özündə, sözündə, səsində, nəfəsində, bütöv ruhunda bir saz havası vardı. O, danışanda da saz dilində danışırdı. Onun havacatları Vətənin qıraqda qalan yerlərində də məclisləri bəzəyirdi. Sazının səsi Göyçə–Göyçə, Borçalı–Borçalı yayılırdı... Onun sazının sədaları hələ Sovetlər Birliyi dönəmində sərhədləri aşıb, bütün Türk dünyasında eşidilirdi. O, adi saz səsi deyildi, Türkün səsi idi, Türklük sevdası idi, Türkün yenilməz ruhu idi.

Saz sənətimizin inkişafında Ədalət Nəsibovun rolu danılmazdır. O, bütün havaları ilahi bir qüdrətlə dillendirirdi, bizlərə ərmağan edirdi. Tək bircə havacatdan savayı. Amma mən Ədalətin içindəki o havacatı duyurdum. O, Ədalətin özü ilə tək qalanda ifa etdiyi hava idi. Ədalət əfsanəsinin ruhunun havası idi. "Ədalət əfsanəsi" havası idi.

...Onun çalğılarını dinləyəndə bir tərəfdən könlümüz şadlanır, bir tərəfdən də üreyimiz odlanır. Bu havacatlar sazın fövqündə dayanır. Ədalət təkcə saz çalmır, ruhumuza layla çalır. Vətən laylası, ana laylası çalır.

Bir dəfə onun məclisinə qonaq oldum. Çal-çağırı şirin bir dastana, uzun bir qış gecəsinin nağılına bənzəyirdi. Arada Ədalət nəfəsini dərirdi. Təzənəni bənd edəndə xərəyə, sanki xal düşürdü ürəyə. Mən ürəkdən-ürəyə daşınan o havacatı daha çox dinləmək istəyirdim. Ürəyimdə sazın nuru dolanır, qönçə kimi açılırdı. İndi o unudulmaz görüşü xatırlayanda həsrətdən göynəyirəm, Kərəm qoşması kimi odsuz-alovsuz qovrulurам, təəssüflə dərin bir ah çəkirəm.

Ədalətlə təsadüfi görüşümüz bir tarix kimi yaddaşımda yaşayır. İlk tanışlıq sonrakı görüşümüzə bir körpü oldu. Söhbəti olduqca maraqlı idi. Xalq yaradıcılığından, aşıq sənətimizin incəliklərindən, özünün saz dünyasından qatı açılmamış o qədər şirin epizodlar danışırdı ki, vaxtın axarını hiss etmirdim. Bir-birindən gözəl, bənzərsiz ifalarının ovsununa düşmüşdüm. Onun sirli-sehrli sənətinin ecazına düşənlər nə qədərdi, ilahi! Onun ifaları milyonların sevgisini, məhəbbətini qazanıb.

Türk dünyasının ünlü sənətkarı, Əməkdar incəsənət xadimi Aşıq Ədalət Nəsibovun anadan olmasının 85-ci ildönümü tamam olur. Aşıq Ədalət Nəsibovun sənəti dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilib. O, Prezidentin fərdi təqaüdçüsü idi, "Şərəf" ordeni ilə təltif edilmişdi. Xalq tərəfindən isə Dədə Ədalət titulunu qazanmışdı. Dədə Ədalətin xatirəsinə hörmət əlaməti olaraq onun qəbri üzərində möhtəşəm abidə ucaldılıb. Eyni zamanda, Xaçmaz şəhərindəki "Şəxsiyyətlər parkı"nı da Dədə Ədalətin möhtəşəm büstü bəzəyir.

Aşıq Ədalət Nəsibov 2017-ci ildə, 78 yaşında vəfat edib. Qazax rayonunun Ağköynək qəbiristanlığında dəfn olunub. Ruhu şad olsun...

***Həzi HƏSƏNLİ,***
***şair - publisist***

# Hekayə müsabiqəsinin qalibləri

**Azərbaycan Ədəbiyyat Fondu ilə "Ulduz" jurnalı "Ədəbiyyat və İncəsənət" portalının media dəstəyi ilə yaşı 35-dək gənc yazarlar arasında görkəmli qələm ustası, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarın 85 illik yubileyinə həsr edilmiş hekayə müsabiqəsi keçirib.**



Mövzu seçimi sərbəst olan və gənc yazarların yaradıcılığının daha da püxtələşməsinə xidmət edən müsabiqədə münsiflər tərəfindən 8 finalçı müəyyənləşdirilmişdi. Bu günlərdə isə qalib və mükafatçıların adları açıqlanıb. Cavid Babayev "Üçnəfərlik motosikletlər" hekayəsinə görə 1-ci yerə layiq görülüb. Qeyd edək ki, finalçıların hekayələri dərc edilərkən ən çox oxunma sayını da məhz bu hekayə qazanmışdı.

Gənc yazarlar Orxan Cuvarlı 2-ci, Xan Abdulla 3-cü yerlərdə qərar tutublar. Bəşir Niftəliyev və Səma Quliyeva isə həvəsləndirici nominasiyada yer alıblar. Müsabiqənin mükafatlandırma mərasimi AYB-də baş tutacaq.

***Ə.ƏLİYEV***
***XQ***

M.Ə.Rəsulzadə – 140

# Görkəmli dövlət xadiminin mətbu baxışları

**Tarix elmləri doktoru, professor Nəsiman Yaqublunun M.Ə.Rəsulzadənin mətbuat haqqında yazılarını və fəaliyyətini əhatə edən, 342 səhifədən ibarət olan kitabı "Qanun" nəşriyyatında çap edilib.**




Bu, M.Ə.Rəsulzadənin 140 illik yubileyi ilində çap olunan ilk geniş araşdırma və tədqiqat kitabıdır. Bu, həm də humanitar elmlər və media sahəsində çalışanların faydalanması üçün ciddi vəsaitdir.

Kitabda M.Ə.Rəsulzadənin mətbuat haqqında 50-dən çox yazısı da oxuculara təqdim olunub. Eyni zamanda kitabda M.Ə.Rəsulzadənin mətbuatla bağlı "İrşad", "Tərəqqi", "Təkamül", "İrani-nov", "İqbal","Açıq söz", "İstiqlal" və digər qəzetlərdəki yazıları, Azərbaycan Parlamentindəki çıxışları tədqiq edilib.

Bundan əlavə, M.Ə.Rəsulzadənin mühacirət irsində mətbuatla əlaqəli yazıları ("Yeni Qafqasya", "Azəri Türk", "Odlu Yurd"), Türkiyə, Polşa rəsmiləri ilə yazışmaları, şəxsi məktublaşmaları da tədqiq edilərək oxuculara təqdim olunub.

Kitabda M.Ə.Rəsulzadənin mətbu fəaliyyətini əhatə edən bəzi yazılar rus və ingilis dillərində də oxuculara çatdırılıb.

Kitabın sonunda – "Sənədlər" bölməsində maraqlı arxiv sənədləri ilə də tanış olmaq mümkündür.

***XQ***

# Qardaş ölkədə kitab təqdimatı

**İstanbulda "Türkiyədəki Azərbaycan cəmiyyətləri" kitabının təqdimatı keçirilib.**




Tarixçi-jurnalist Dilqəm Əhmədin müəllifi olduğu bu nəşr Türkiyə Cümhuriyyətinin yaranmasının 100-cü ildönümünə həsr edilib. Kitabda 1920–1991-ci illərdə azərbaycanlı mühacirlərin qardaş ölkədə qurduqları ictimai-mədəni təşkilatların tarixindən bəhs olunur.

Nəşrdə mühacirət dövründə Azərbaycandan Türkiyəyə köç etmək məcburiyyəti qarşısında qalan siyasətçilərimiz, yazıçılarımız, ictimai xadimlərimizin də daxil olduğu ictimai-mədəni dərnəklərin tarixi əhatə edilib. Yubiley münasibətilə nəşrdə Məhəmməd Əmin Rəsulzadənin 1940-cı ildə qurduğu Azərbaycan Mədəniyyat Dərnəyinin fəaliyyəti də işıqlandırılıb. Bu dərnəyin ilk 25 illik fəaliyyəti dövründə keçirdiyi tədbirlər, o cümlədən 20-dən artıq konfrans günbəgün əks olunub. Müəllifin dediyinə görə, həmin dərnək hələ də Ankarada fəaliyyətini davam etdirir. Qurulan bütün bu birliklərin əsas məqsədi Azərbaycanın musiqisini, mədəniyyətini təbliğ etmək, qarşılıqlı yardımlaşmaq olub.

Təqdimat mərasimində əsərin məziyyətləri, Azərbaycan–Türkiyə qardaşlığının dərin köklərə malik olduğu qeyd edilib.

***XQ***

# Rəssamlığın xilaskarlıq missiyası



**"Dünyanı sənət xilas edəcək!" Bu günlərdə sənətsevərlər "Atatürk Mərkəzi"ndə bu fikrin işığına – yenicə çapdan çıxmış eyni adlı kitab-kataloqun təqdimatına toplaşmışdılar.**

Tədbiri giriş sözü ilə açan "Uluslararası Aktvist Sənətçilər Birliyi"nin Azərbaycan üzrə təmsilçisi, rəssam Nəvai Metin kitabda 125 ölkədən 135 sənətçinin əsərlərinin toplandığını bildirdi. Rəssam bu qurumun əsas məqsədlərinin incəsənəti sevdirməklə, gənc istedadları üzə çıxarmaq olduğunu söylədi.

Xalq rəssamı Arif Hüseynov kataloqun nəşrini nəcib iş kimi alqışladı və 1990-cı illərdə Azərbaycan rəssamlarının əsərlərindən ibarət kataloqun çap olunduğunu yada saldı. Rəssam təklif etdi ki, hər bir türk ölkəsinin rəssamlarının da ayrıca kataloqunun nəşri günün tələbinə uyğun olardı.

Sənətşünas Ziyadxan Əliyev, Milli Məclisin Mədəniyyət Komitəsinin eksperti Əkbər Qoşalı, Qazax Xeyriyyə İctimai Birliyinin sədri İlham Pirməmmədov, ədəbiyyatşünas Rüstəm Kamal kataloqun nəşrini sənət aləmində hadisə adlandırdılar, onun təşəbbüskarlarına və mərasimin təşkilatçılarına minnətdarlıq duyğularını ifadə etdilər. Digər natiqlər yeni kitab-kataloqun məziyyətlərindən danışdılar.

Tədbirdə rəssam Nəvai Metinin əsərləri də nümayiş olundu.

***Ceyhun MİRZƏLİ***

# "Qaya"nın susmaz əks-sədası

**..."Qaya" oxuyurdu. Dinləyiciləri romantik aləmə aparırdı. Qobustan qayalarını, möcüzəli qavaldaşı yada salırdı, həm də gəncləri sabaha səsləyirdi. Bu, şöhrəti dünyaya yayılan Azərbaycanın əfsanəvi kvarteti idi.**



Lap bu yaxınlara qədər səsi-sorağı gəlirdi "Qaya"nın. Məşhur bakılı "dördlüyün" – Teymur Mirzəyev, Arif Hacıyev, Rauf Babayev və Lev Yelisavetskinin ahəngdar səsləri hamını heyran qoymuşdu. Sonra Xalq artisti Rauf Babayev rəsmi status almış "Qaya" Dövlət Caz Ansamblının nəzdində "Bəri bax" uşaq vokal ansamblını yaratdı və 2020-ci ildə vəfatınadək bu kollektivə rəhbərlik etdi...

Beynəlxalq Muğam Mərkəzində indiki "Qaya" Dövlət Ansamblının konserti hər kəsi ötən günlərə apardı. Xatirələr dilə gəldi, kvartetin "möhür" vurduğu nəğmələr səsləndi. Düşündük ki, "Ey həyat, sən nə qəribəsən"...

Konsert boyunca caz təranələri və klassik musiqinin sintezi fantastik bir ruhda təqdim olundu. İnstrumentalçılar da virtuoz çıxışları ilə heyrət doğurdular.

***Ə.DOSTƏLİ***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 18 (30422) 28 yanvar 2024-cü il, bazar

## Uran "yan üstə çevrilib"

***Uran planeti unikal kimyəvi tərkibi, temperaturu və fırlanma oxunun yana əyilməsi ilə Günəş sistemindəki digər planetlərdən fərqlənir.***



Onun öz fırlanma oxunda niyə belə qeyri-adi əyilməsinin səbəbi hələlik məlum deyil. Bu barədə müxtəlif versiyalar var. Məsələn, alimlər hesab edirlər ki, nəhəng planet 3–4 milyard il əvvəl bir və ya bir neçə kosmik obyektlə toqquşub. Bu səbəbdən də "yan üstə çevrilib".

Uranın bir özəlliyi isə (Venera kimi) saat əqrəbi istiqamətində fırlanmasıdır. Günəş sistemindəki digər planetlər isə saat əqrəbinin əksinə, yəni Günəşlə eyni istiqamətdə fırlanırlar.

***P.ƏFƏNDİ***
***XQ***


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

## *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. **"Azərmətbuatyayımı" ASC (012)-440-16-26.**
2. **"Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.**
3. **"Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.**
4. **"SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.**
5. **"ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.**
6. **"PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.**




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
***Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.***

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Teatr

## "Manqurt" Dram Teatrına qayıtdı

***Fevralın 1-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində "Manqurt" tamaşası növbəti dəfə nümayiş olunacaq. Səhnə əsəri Çingiz Aytmatovun "Gün var əsrə bərabər" romanının motivləri əsasında hazırlanıb.***




Tamaşanın quruluşçu rejissoru Mədəniyyət və İncəsənət Universitetinin diplomçusu İzamə Babayeva, rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğludur.

Birhissəli epik rəvayət olan tamaşa türk, altay və qırğız əfsanələrində haqqında bəhs edilən, şüursuz hala gətirilən kölə-manqurtlardan bəhs edir.

Səhnə əsərində Əməkdar artistlər Mehriban Xanlarova, Elşən Rüstəmov, aktyorlar Ramin Şıxəliyev, İmran Ali Qurban və Fərid Vəliyev iştirak edəcəklər.

***XQ***

# "Sehrli xalat" geyinmiş oğlan...

## *30 il əvvəl ABŞ-a köçmüş Azər Qurbanov bir daha Bakıya dönə bilmədi*

**Onun haqqında keçmiş zamanda danışmaq çox çətindir. Çünki həyatda Azər qədər pozitiv, nikbin, həyatsevər, qohumcanlı, dostcanlı çox az adam tanıyıram.**

Bibimin atası Muxtar Qurbanov Şuşanın Malıbəyli kəndindən idi və 30–40-cı illərdə Gəncə toylarının böyük əksəriyyətini o, eləcə də qardaşları Həmid və Əsgər Qurbanovlar aparıblar. Opera və balet teatrının solisti, respublikanın Əməkdar artisti olan bibim Xurşid Qurbanovanın qeyri-adi, gözəl səsi olub. O, Gəncədə doğulsa da, oğlu Azər 1953-cü il aprelin 23-də Bakıda dünyaya göz açıb və orta təhsilini paytaxtdakı 225 nömrəli orta məktəbdə rus dilində alıb. Onun da yaxşı səsi vardı. Buna görə də konservatoriyanın vokal fakültəsini bitirib.



Lakin Azər kinoya daha çox həvəs göstərib. Ekranda ilk debütü 7 yaşında "Bir məhəlləli iki oğlan" filmində olub. Daha sonra "Əcnəbi qız" (1965), "Bizim oynadığımız dənizdə" (1967), ilk sovet-yuqoslav birgə filmi olan "Mavi quş, yolun açıq olsun" (1967) filmlərində rol alıb. Odessa kinostudiyasının istehsalı olan "Hakim", "Əcnəbi qadın", "Külək" filmlərində də çəkilib. Ona ən böyük uğuru isə "Sehrli xalat" filmindəki Rəşid obrazı gətirib.

Redaksiyadan Azərlə bağlı yazı hazırlamaq tapşırığını alanda ilk yadıma düşən Əməkdar mədəniyyət işçisi Yusif Şeyxov oldu. Bilirdim ki, Yusif müəllim onunla tez-tez əlaqə saxlayır və həm də "Sehrli xalat"da bir yerdə çəkiliblər. Onun bu barədə dedikləri: "Mərhum kinorejissorumuz Əlisəttar Atakişiyev Azəri yüzlərlə uşağın arasından seçmişdi və sonralar da sübut olundu ki, bu seçimin alternativi yox imiş. Yadımdadır, çəkiliş meydançasında hamıdan fərqlənirdi, rejissorun tapşırıqlarını o dəqiqə anlayır və rolu ustalıqla ifa edirdi. Aktyorluq qabiliyyəti açıq-aşkar hiss olunurdu. Filmi səsləndirmə mərhələsində rejissor səslərin sınağını keçirdi və mənim səsim bəyənildi. Çünki Azər rus dilində təhsil aldığından onun Azərbaycan dili nisbətən zəif idi. Onu mən səsləndirməli oldum və əslində, həmin filmdə ikimiz birlikdəyik, yəni onun körkəmi, mənim isə səsim.

Azər ABŞ-da olanda da telefon əlaqələrimiz olub. Təəssüf edirəm ki, biz 10 il qabaq "Sehrli xalat"ın 50 illik yubileyini keçirəndə söz versə də, gələ bilmədi. İndi yenidən təəssüf edirəm ki, bu ilin oktyabrında həmin filmin 60 illik yubileyində sehrli oğlan Azər yenə iştirak edə bilməyəcək".

Yusif müəllim çox dəqiq ifadə etdi: "Sehrli oğlan". Biz Azərlə qan qohumu olsaq da, ömrünün sonuna kimi onu elə sehrli, sirli-soraqlı oğlan kimi tanıdım. Halbuki yuxarıda qeyd etdiyim kimi, həddindən artıq səmimi, mehriban, komplekssiz bir oğlan idi.



Yay tətillərində bibimlə tez-tez bizə gəlirdi. Göygölə, Kürün sahillərinə gedərdik. 13-14 yaşlarında artıq özünü peşəkar aktyor kimi aparırdı. Elə də yaş fərqimiz yox idi. Gələn kimi mənə, bacılarıma, ondan ötrü ətrafımıza yığışan uşaqların hərəsinə bir rol tapşırır, özü də oxuyub-oynamaqla yanaşı, həm də gözəl rejissorluq edirdi.

Bakıda Azərin sonuncu sinifdə oxumağı ilə mənim tələbəlik illərimin başlanması eyni vaxta düşdü. Tez-tez onlara gedirdim. Bibim deyirdi ki, Azər Ümumittifaq Kinemotoqrafiya İnstitutuna daxil olmaq istəyir. Gecə-gündüz hazırlaşırdı. Bir gün də onlara gələndə gördüm ki, dostları, tanışları bura yığışıb. Sən demə, Bakıya həmin institut üçün tələbə seçməyə gələn SSRİ xalq artisti Yevgeni Matveyev 200 abituriyent içərisində yalnız Azərə 5 qiymət yazıb və beləliklə də o, Moskvaya təhsil almağa getdi. Səhv etmirəmsə, Xalq artisti Həmidə Ömərova da həmin ali məktəbin tələbəsi adını qazanmışdı.

Bax, elə Azərin sirli-soraqlı həyatı da bundan sonra başladı.Tez-tez Azərdən hal-əhval tuturdum. Deyirdi yataqxanada qalır, çox yaxşı da oxuyur, elə bir narahatlıq yoxdur. Amma sonra müəyyən səbəblərdən Azər Kinematoqrafiya İnstitutunu Leninqraddakı Şukin adına Teatr İnstitutuna dəyişdirməli olmuşdu...

Bir müddət Bakıda qaldıqdan sonra, 90-cı illərin əvvəllərində Azər ABŞ-a köçməyi qərara aldı. Fikirləşdi ki, ulduz kimi orada da parlamaq olar. Təəssüf ki, o cür düşündü və aktyorluq sənətini davam etdirə bilmədi. Orada özünün dərzi şirkətini yaratdı. Gözəl əl işləri vardı. Lakin müəyyən vaxt keçdikdən sonra o işdən də əl çəkməli oldu. O qədər də qazanc gətirməyən başqa bir işin qulpundan yapışdı. Amma razı idi. Yeganə narahatlığı bibimdən idi. Azər ona həddindən artıq bağlı adam idi. Tez-tez mənə də yazırdı, bibim hər həftə zəng edirdi. Və bir gün Azərin telefondan qırıq-qırıq səsi gəldi. Bibim vəfat etmişdi.

Son vaxtlar əlaqələrimiz çox azalmışdı. Nəsə yazırdım, 10-15 gün sonra cavab verirdi, ya vermirdi. Görünür, ciddi xəstəliyə tutulması sehrli, sirli-soraqlı oğlanı öz aləminə – acılı-şirinli, səhvli-səhvsiz günlərə, xatirələrinə qaytarmışdı...

Bir neçə il qabaq ondan müsahibə götürən saytların hansısa Azərin dediyi "Vətəninizi heç vaxt tərk etməyin" sözlərini yazının sərlövhəsinə çıxarmışdı...

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

Tofiq Bəhramovu xatırlayarkən



# Yaşıl meydanın hökmdarı

**29 yanvar 1925-ci il. Beynəlxalq Futbol Federasiyası (FİFA) hakimlərinin Azərbaycanda ilk səlahiyyətli nümayəndəsi Tofiq Bəhramovun həyata göz açdığı gün. 99 il əvvəl anadan olmuş Tofiq müəllim 68 yaşında, 1993-cü il martın 26-da dünya şöhrətli hakim kimi əbədiyyətə qovuşub.**

T.Bəhramovun futbolda keçdiyi qürurlu yol, xüsusən də Londonun "Uembli" stadionunda dünya çempionatı—66-nın İngiltərə—AFR finalında qəbul etdiyi dəqiq qərar bu gözəl oyunun pərəstişkarlarına çoxdan yaxşı məlumdur və bu gün də həmyerlimiz minnətdarlıqla xatırlanır.

London—66-dan sonra Sovet İttifaqının ən yaxşı hakimlərindən biri kimi daha da məşhurlaşan T. Bəhramov Mexico-70-ə də dəvət olunmuşdu. Moskvada nəşr olunan çox populyar "Sportivnıye iqrı" jurnalı Meksikada dünya çempionatı günlərində Bəhramovun idarə etdiyi oyunlardan biri haqqında belə yazmışdı:

"İyunun 6-da Tofiq Mərakeş və Peru komandalarının görüşündə hakimlik etdi. Çempionat başlamazdan əvvəl hər iki komanda autsayderlər sırasına aid edilirdi. Lakin əvvəlki turda Peru futbolçuları bolqarlarla oyunda sübut etmişdilər ki, yaxşı futbol oynamağı bacarırlar. Onlar matçın gedişində 0:2 hesabı ilə uduzmalarına baxmayaraq, oyunda dönüş yaradıb, qalib gəldilər—3:2. Mərakeşlilər də az qala sensasiyaya səbəb olacaqdılar. Bu komanda Qərbi Almaniya yığması ilə oyunda 1:0 hesabı ilə irəli çıxmışdı. Amma 1966-cı il dünya çempionatının ikinci mükafatçıları çətinliklə də olsa, qələbə qazanmışdılar.

Bu təfsilatı ona görə xatırladırıq ki, bir çoxlarının fikrincə, Bəhramova asan oyun düşmüşdü. Hərçənd, dünya çempionatı görüşləri asan ola bilərmi?! Bir sözlə, bu adi oyun deyildi. Meydançada kəskin mübarizə getdi. Biz həmkarımızın hakimliyini çox diqqətlə, əlimizdə qələm izləyirdik. Demək olar, heç bir qeyd etmədik, hakimlik dəqiq və səhvsiz idi. Hətta deyərdik ki, gözəl hakimlik idi.

Final işarəsi eşidiləndə komandaların kapitanları dəqiq işinə görə hakimə səmimi minnətdarlıqlarını bildirdilər. Tofiq Bəhramov meydançanı yorğun halda tərk edirdi. Onun üzünü təbəssüm bürümüşdü".

Tofiq Bəhram oğlu Bəhramov təkcə həmin gün yox, ondan əvvəl də, sonra da dəfələrlə meydançanı razı halda tərk etmiş və hər dəfə də üzündə təbəssüm görünmüşdür. O, Azərbaycanın futbol hakimləri məktəbinin layiqli təmsilçisi olduğunu inamla sübuta yetirmişdir.

Bu gün diqqətinizə çatdırdığımız foto da tarixin səhifələrinə Meksika mundialından köçüb. Həmin il iyunun 17-də Qvadalaxara şəhərində keçirilmiş Braziliya—Uruqvay görüşündə sovet hakimi Tofiq Bəhramov ispaniyalı baş hakim Xose Ortis de Mendibilin köməkçisi olmuşdur. Oyunda hesabı uruqvaylı Luis Kubilya açmış, braziliyalılar isə buna Klodoaldo, Jairzinyo və Rivelinonun 3 qolu ilə cavab vermişlər. Mario Zaqallonun komandasının 3:1 hesablı qələbəsi onu finala çıxarmışdır.

Bu da çox maraqlıdır ki, təqdim etdiyimiz fotoda Bəhramovla braziliyalıların kapitanı Karlos Alberto Torresi (sarı köynəkdə) yanaşı görürük. Onda kimin ağlına gələrdi ki, vaxt gələcək, Torres Bəhramovun vətəni Azərbaycanda bir neçə il millimizin baş məşqçisi olacaq…

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# Bölgələrdə yağıntı və duman olacaq



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən yanvarın 27-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir.**

Əsasən səhər və axşam bəzi yerlərdə arabir yağıntılı olacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 0-4°, gündüz 6-9° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 758 mm civə sütununa enəcək, nisbi rütubət 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında Qərb rayonlarından başlayaraq arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 0-5° şaxta, gündüz 0-5° isti, dağlarda gecə 5-10°, gündüz 0-5° şaxta olacaq. Gecə və səhər bəzi dağlıq rayonlarda yolların buz bağlama ehtimalı var.

***Q.QASIMOV***
***XQ***

Sağlamlıq

# Qanın azdır? – bal ye, qaldır!

**Qanazlığının yüngül formalarında pəhrizə müəyyən dəyişiklik etməklə asanlıqla müalicə edib problemi aradan qaldırmaq mümkündür.**

Bunun üçün ilk növbədə qidalanmaya diqqət edilməlidir. Menyuda dəmirlə zəngin olan ərzaqları artırmaq lazımdır. Söhbət, əsasən ət məhsullarından gedir. Bundan əlavə qanın tərkibini yaxşılaşdırmaq üçün pəhrizə qoz-fındıq, bal, albalı, alma, çuğundur, qarabaşaq, xurma kimi məhsullar vaxtaşırı daxil edilməlidir.



Mütəxəssislər qanazlığına kömək edən belə bir qarışığı tövsiyə edirlər: "200 qram badam, 300 qram xurma, 200 qram təbii bal götürülür. Xurma və badam yaxşı yuyulur və qurudulur, xurmanın çəyirdəkləri çıxarılır. Xurma və badam blenderlə yaxşı əzilir, bal əlavə edilib qarışdırılır. Hər gün bu dadlı qarışımdan 1 xörək qaşığı qəbul edilir".

Onların fikrincə, badam, xurma və bal qanyaratma sistemi üçün faydalı olan bir çox maddələrlə – mis, dəmir, fol turşusu və s. zəngindir.

***Z.HÜSEYNLİ***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3328
SİFARİŞ 153
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır
00:00